AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

TƏHSİL XƏBƏRLƏRİ

MƏLUMAT-İNFORMASİYA MƏCMUƏSİ

№1 2011

Qanunlar
Fərmanlar və Sərəncamlar
Qərarlar
Normativ sənədlər
Əmrlər
Məlumat və xronika

Baş redaktor: **Misir Mərdanov**

Redaksiya şurası: İsgəndər İsgəndərov, Elmar Qasımov, İradə Hüseynova, İlham Pirməmmədov, Gültəkin Hüseynova (*baş redaktorun müavini*), Əsgər Quliyev (*məsul katib*), Təranə Hacıyeva, İlham Mustafayev, Şahrza Əliyev, Fərzəli Qədirov, Aydın Əhmədov, Həbib Zərbəliyev, Elmir Həsənov

"Təhsil xəbərləri" (Təhsil Nazirliyinin məlumat-informasiya məcmuəsi), Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 64 səh.

Redaksiyanın ünvanı:

Bakı, AZ 1008,
Xətai prospekti, 49,
telefon: 496-06-45,
faks: (+99412) 496-34-83.

"Təhsil xəbərləri"nin elektron versiyası:
İnternet şəbəkəsi
http://www.edu.gov.az,tx.edu.az

E-mail: office@edu.gov.az

4301000000-484 **Sifarişlə**
082-08

© Azərbaycan Respublikasının
Təhsil Nazirliyi, 2011

M Ü N D Ə R İ C A T

İsmayıllı Peşə Tədris Mərkəzinin yaradılması haqqında (Azərbaycan Respublikası təhsil nazirinin 11 yanvar 2011-ci il tarixli, 26 nömrəli əmri)..... 4

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə təhsil müəssisələrində keçiriləcək tədbirlər haqqında (Azərbaycan Respublikası təhsil nazirinin 25 yanvar 2011-ci il tarixli, 121 nömrəli əmri) 8

Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında (Azərbaycan Respublikası təhsil nazirinin 01 fevral 2011-ci il tarixli, 194 mömrəli əmri) 11

"Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli, 5 nömrəli qərarının elan olunması barədə (Azərbaycan Respublikası təhsil nazirinin 10 fevral 2011-ci il tarixli, 246 nömrəli əmri) 15

"Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2011-ci il tarixli, 7 nömrəli qərarının icrası barədə (Azərbaycan Respublikası təhsil nazirinin 09 fevral 2011-ci il tarixli, 234 nömrəli əmri) 35

İsmayıllı Peşə Tədris Mərkəzinin yaradılması haqqında

(Azərbaycan Respublikası təhsil nazirinin
11 yanvar 2011-ci il tarixli, 26 nömrəli əmri)

"İsmayıllı Peşə Tədris Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarını elan edirəm:

"Azərbaycan Respublikasının Nazirlər Kabineti

Q Ə R A R

№ 239

Bakı şəhəri, 17 dekabr 2010-cu il

İsmayıllı Peşə Tədris Mərkəzinin yaradılması haqqında

Azərbaycan Respublikası Təhsil Nazirliyinin aidiyyəti dövlət orqanları ilə razılaşdırılmış təklifini nəzərə alaraq, turizm və xidmət sahələri üçün ixtisaslı kadrların hazırlanmasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR**:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin İsmayıllı peşə məktəbi ləğv edilsin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin İsmayıllı Peşə Tədris Mərkəzi yaradılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 23 avqust tarixli, 116 nömrəli qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Peşə məktəbi və peşə liseyi statusu verilən təhsil müəssisələrinin Siyahısı"nın "Peşə məktəbləri" bölməsinin "Respublikanın rayonları üzrə" hissəsindən "İsmayıllı peşə məktəbi 138" sözləri və rəqəmi çıxarılsın.

3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının
Baş naziri **A.Rasi-zadə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 dekabr 2010-cu il tarixli, 239 №-li qərarının icrası ilə əlaqədar

Ə M R E D İ R Ə M:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 dekabr 2010-cu il tarixli, 239 nömrəli qərarı rəhbərlik və icra üçün qəbul edilsin.
2. Ləğv edilmiş İsmayıllı peşə məktəbinin direktoru Rəhimov Vaqif Hənnan oğlu və tədris-istehsalat işləri üzrə direktor müavini Mirzəyev Fikrət Tahir oğlu ilə bağlanmış əmək müqavilələri Azərbaycan Respublikası Əmək Məcəlləsinin 70-ci maddəsinin "a" bəndinə əsasən 05.01.2011-ci il tarixdən ləğv edilsin.
3. İsmayıllı peşə məktəbinin ləğv edilməsi ilə əlaqədar olaraq məktəbin Lahıc filialı da ləğv edilsin.
4. İsmayıllı şəhər 2 nömrəli orta məktəbin direktor müavini Muradov Zaur Fazil oğlu İsmayıllı Peşə Tədris Mərkəzinə direktor təyin edilsin.
5. Aşağıdakı tərkibdə ləğvetmə komissiyası yaradılsın:

- Namiq Məmmədov – Texniki peşə təhsili şöbəsinin müdiri, sədr
- Elmir Həsənov – Hüquq sektorunun müdiri, üzv
- Akif Hacıyev – İqtisadiyyat şöbəsi, Mühasibat uçotu və hesabat sektorunun baş məsləhətçisi, üzv
- Rüstəm Quliyev – İqtisadiyyat şöbəsi, məsləhətçi, üzv
- Rəsul Əsgərov – Təhsil Problemləri İnstitutunun İlkin Peşə Təhsilinin İnkişaf Mərkəzinin direktoru, üzv
- Zaur Muradov – İsmayıllı Peşə Tədris Mərkəzinin direktoru

6. Komissiyaya tapşırılsın:
   6.1. Peşə məktəbinin balans hesabında olan bütün əmlakının faktiki inventarlaşdırılmasını aparsın və 01.01.2011-ci il vəziyyətinə balans- uçot göstəriciləri ilə üzləşdirsin. Peşə məktəbinin 05.01.2011-ci il vəziyyətinə balans hesab-uçot qalıqlarının Peşə Tədris Mərkəzinin balansına verilməsini, həmçinin ləğv olunmuş məktəbin maliyyə, uçot, hesabat və təhsil sənədlərinin təhvil-təslim aktlarının hazırlanıb və bir nüsxənin Təhsil Nazirliyinə təqdim edilməsini;
   6.2. Peşə məktəbinin möhür, ştamp və ciddi hesabat sənədlərini müəyyən olunmuş qaydada Təhsil Nazirliyinə təhvil verilməsini;
   6.3. Əmək qanunvericiliyinə uyğun işçilərin əmək müqaviləsinin ləğv olunmasını və mövcud qaydada Peşə Tədris Mərkəzinə işə qəbul edilməsini;
   6.4. Şagirdlərin İsmayıllı Peşə Tədris Mərkəzində təhsillərinin davam etdirilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsini;
   6.5. Ləğv edilmiş İsmayıllı peşə məktəbinin tədris binasının İsmayıllı rayon Təhsil Şöbəsinə verilməsi ilə bağlı aidiyyəti orqanlar qarşısında vəsatət qaldırılmasını və qanunvericiliyə uyğun digər tədbirlərin həyata keçirilməsini təmin etsin;
   6.6. Görülmüş işlər barədə 10 gün müddətində rəhbərliyə məlumat versin.
7. İqtisadiyyat şöbəsi (Ş.Əliyev) və Texniki-peşə təhsili şöbəsi (N.Məmmədov) yeni yaradılmış İsmayıllı Peşə Tədris Mərkəzinin ştat cədvəlində, şagird kontingentinin sayında dəqiqləşmələr aparsınlar, Peşə Tədris Mərkəzinin normal fəaliyyəti üçün tələb olunan vəsaitin ayrılmasını təmin etsinlər.
8. Texniki peşə təhsili şöbəsi (N.Məmmədov) Təhsil Problemləri İnstitutu (A.Mehrabov) ilə birlikdə İsmayıllı Peşə Tədris Mərkəzi üçün ixtisas, ümumtexniki və başqa fənlər üzrə çatışmayan dərslik və dərs vəsaitlərinin siyahısını müəyyənləşdirsinlər və 2011/2012-ci illərdə həmin dərslik və dərs vəsaitlərinin nəşr

olunması üçün konkret tədbirlərin görülməsini, tədris prosesinin normal təşkilinə dair lazım olan digər tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

9. Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsi (F.Qədirov) Peşə Tədris Mərkəzinin rəhbər mühəndis-pedaqoji kadrlarla möhkəmləndirilməsi, onların ixtisasının artırılması və yenidən hazırlanması sahəsində lazımi tədbirlər görülməsini təmin etsin.
10. İsmayıllı Peşə Tədris Mərkəzinin direktoru Z.Muradova tapşırılsın:
    - 10.1. 1 ay müddətinə Peşə Tədris Mərkəzinin Nizamnaməsini hazırlasın və mövcud qaydalar üzrə qeydiyyatdan keçirilməsini, möhür və ştamp hazırlanmasını təmin etsin;
    - 10.2. Kadr hazırlanacaq peşələrə uyğun maddi-texniki bazanın yaradılması üçün tədbirlər görsün;
    - 10.3. Peşə Tədris Mərkəzinin yeni struktur və xərclər smetasının layihəsinə əsasən ştat cədvəli hazırlayıb nazirliyə təqdim etsin.
11. İctimaiyyətlə əlaqə şöbəsinin müdiri (B.Hüseynzadə) əmrin "Azərbaycan müəllimi" qəzetində, "Sənətkar" jurnalında dərc edilməsini və digər kütləvi informasiya vasitələrində yayılmasını təmin etsin.
12. Əmrin icrasına nəzarət Təhsil nazirinin müavini İ.İsgəndərova həvalə edilsin.

Əsas: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 dekabr 2010-cu il tarixli, 239 №-li qərarı.

Misir Mərdanov,
Azərbaycan Respublikasının təhsil naziri

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə təhsil müəssisələrində keçiriləcək tədbirlər haqqında

(Azərbaycan Respublikası təhsil nazirinin
25 yanvar 2011-ci cil tarixli, 121 nömrəli əmri)

Dünya şöhrətli müdrik siyasətçi, qüdrətli dövlət xadimi, böyük mütəfəkkir Heydər Əliyevin 2011-ci il mayın 10-da anadan olmasının 88-ci ildönümü tamam olur.

Ulu öndər Heydər Əliyevin adı bəşər tarixində müstəsna xidmətlər göstərmiş sayılıb-seçilən ən məşhur və nüfuzlu şəxsiyyətlərlə bir sırada çəkilir. Azərbaycanın xalqımıza şərəf və başucalığı gətirən müasir tarixinin zəfər salnaməsinin yaradılmasında böyük rəhbərimizin ölçüyəgəlməz xidmətləri danılmaz və unudulmaz həqiqətdir. O, nəsillərin yaddaşında dövlət müstəqilliyimizin, milli mənəvi və bəşəri dəyərlərə, xalqa, dövlətçiliyə sadiqliyin, azərbaycançılıq məfkurəsinin rəmzi, ölkəmizi tənəzzül və vətəndaş müharibəsi təhlükəsindən azad edən böyük xilaskar, Azərbaycanı beynəlxalq aləmdə ali nüfuz məqamına yetirən dahi şəxsiyyət olaraq əbədiyyət qazanmışdır.

İllər bir-birini əvəz etdikcə Heydər Əliyev dühasının, onun parlaq gələcəyə ünvanlanmış işıqlı ideyalarının, dövlət quruculuğu və idarəetmə məharətinin əzəməti daha aydın hiss olunmaqdadır. Bu gün dünyanın siyasət aləmində Heydər Əliyev fenomeni öyrənilməli və bəhrələnməli məktəb kimi qəbul edilir.

Tarix ulu öndərə şərəfli həyat və fəaliyyətinin bütün dövrlərində möhtəşəm quruculuq, sosial-iqtisadi inkişaf və ictimai-siyasi sabitliyin təminatçısı olmaq səadətini bəxş etmişdir. Ümummilli liderimizin Azərbaycanda siyasi hakimiyyətə yüksəlişinin hər iki dövrü məhz tarixi zərurətdən irəli gələn həmin xoşməramlı missiyalara parlaq sübutdur.

Təhsilə, təhsil işçilərinə müntəzəm diqqət və qayğı Azərbaycana rəhbərlik etdiyi bütün illərdə ulu öndərin çoxsahəli və genişmiqyaslı fəaliyyətində prioritet istiqamət olmuşdur. Müstəqillik dövründə ölkəmizdə novator və innovativ ruhlu təhsil siyasəti ilə müşayiət olunan islahatlara başlanması, inkişafyönümlü Dövlət proqramlarının qəbul edilməsi, ümumtəhsil məktəb şagirdlərinin dərsliklərlə pulsuz təmin olunması bilavasitə ümummilli liderimizin adı ilə bağlıdır.

Bu gün hər bir Azərbaycan vətəndaşının, dünyanın müxtəlif ölkələrində yaşayan hər bir azərbaycanlının qəlbində Heydər Əliyev işığının sönməz zərrəsi şölələnir. Heydər Əliyev yolunu özünə həyat idealı seçmiş indiki nəsil, ilk növbədə, təhsil işçiləri gələcəyimiz hesab edilən müasir gənclərin ümummilli liderimizin nümunəsində tərbiyə olunmasını, onun zəngin irsinin dərindən öyrənilməsini təmin etməli, bu şərəfli işin yerinə yetirilməsinə Vətən və xalq qarşısında müqəddəs vəzifə kimi münasibət bəsləməlidirlər.

Qeyd edilənlərin tarixi zərurət olduğunu nəzərə alaraq

ƏMR EDİRƏM:

1. Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, texniki peşə, ali və orta ixtisas təhsili müəssisələrinin, Təhsil Nazirliyi nəzdindəki ümumi təhsil müəssisələrinin rəhbərləri 2011-ci il fevral ayından başlayaraq ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə xüsusi tədbirlər müəyyənləşdirib həyata keçirilməsini təmin etsinlər.
2. Respublikanın ümumtəhsil məktəblərinin VII-XI sinif şagirdlərinin və ilk peşə-ixtisas təhsili müəssisələri şagirdlərinin iştirakı ilə ulu öndər Heydər Əliyevin zəngin həyat və fəaliyyətinə həsr olunmuş inşa yazı müsabiqəsi keçirilsin. Müsabiqənin məktəb və rayon (şəhər) mərhələləri aprel ayının 10-dək yekunlaşdırılsın.
3. İnşa müsabiqəsinin yekun mərhələsi Təhsil Nazirliyinin müəyyən etdiyi vaxtda Bakı şəhərində keçirilsin.
4. Müsabiqənin yekun mərhələsinin iştirakçıları üçün aşağıdakı qaydada kvota müəyyənləşdirilsin:
   4.1. Ümumtəhsil məktəbləri üzrə – hər rayon və şəhərdən 1 (bir) nəfər;
   4.2. Təhsil Nazirliyi nəzdindəki ümumi təhsil müəssisələri üzrə – 5 (beş) nəfər;
   4.3. İlk peşə-ixtisas təhsili müəssisələri üzrə – 10(on) nəfər.
5. Naxçıvan Muxtar Respublikasında bu əmrdə qeyd olunan tədbirlərin müəyyən edilən müddətlərdə Naxçıvan MR Təhsil Nazirliyi və digər aidiyyəti təhsil müəssisələri tərəfindən

müstəqil yerinə yetirilib yekunlaşdırılması məqsədəuyğun hesab edilsin.

6. İlk peşə-ixtisas təhsili müəssisələri və Təhsil Nazirliyi nəzdindəki ümumi təhsil müəssisələri şagirdlərinin inşa yazılarının nəzərdən keçirilərək yekun mərhələdə iştirak üçün qaliblərin müəyyənləşdirilməsi işinin təşkili Təhsil Nazirliyi Aparatının rəhbəri İ.Pirməmmədova həvalə olunsun.
7. Kənd rayonları üzrə Ümumi təhsil şöbəsi (A.Əhmədov) inşa yazı müsabiqəsinin yekun mərhələsinin səmərəli təşkili, başa çatdırılması, qaliblərin müəyyənləşdirilməsi məqsədilə lazımi tədbirlər görsün, ən yaxşı inşaların toplu şəklində nəşr olunması üçün İqtisadiyyat şöbəsi (Ş.Əliyev) və Dərslik və nəşriyyat şöbəsi (F.Şahbazlı) birgə təkliflər hazırlasınlar.
8. Ali və orta ixtisas təhsili şöbəsi (İ.Mustafayev), Elm şöbəsi (G.Hüseynova) 2011-ci ilin fevralından etibarən ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri ilə birlikdə ümummilli lider Heydər Əliyevin elm, təhsil və iqtisadiyyatın inkişafı sahəsində genişmiqyaslı fəaliyyətinə həsr olunmuş elmi-praktik konfrans, "dəyirmi masa" və seminarların keçirilməsi üzrə lazımi tədbirlər görsünlər.
9. Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsi (A.İbrahimov) 2011-ci ilin fevral-aprel aylarında ümumtəhsil məktəbləri şagirdlərinin iştirakı ilə "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda rəsm müsabiqəsi və sərgisinin, habelə müxtəlif növlər üzrə idman turnirlərinin keçirilməsini təmin etsin.
10. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını təmin etsin.
11. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Misir Mərdanov,
Azərbaycan Respublikasının təhsil naziri

Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında

(Azərbaycan Respublikası təhsil nazirinin
01 fevral 2011-ci il, 194 mömrəli əmri)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli, 215 nömrəli qərarını elan edirəm:

**"Azərbaycan Respublikasının
Nazirlər Kabineti**

QƏRAR

№ 215

Bakı şəhəri, 24 noyabr 2010-cu il

Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.24-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normaları aşağıdakı kimi müəyyən edilsin:

- məktəbəqədər tərbiyə müəssisələrində tərbiyəçilərin həftəlik iş vaxtı – 30 saat;
- bütün tipdən olan ümumtəhsil məktəblərində, gimnaziya və liseylərdə, peşə məktəbləri və peşə liseylərində, idman və incəsənət məktəblərində müəllimlərin, məktəbdənkənar

təhsil müəssisələrində dərnək rəhbərlərinin həftəlik 1 (bir) stavka dərs yükü – 12 saat (bu zaman həftəlik dərs yükü 2 (iki) stavkanı aşmamalıdır);

- ümumtəhsil məktəblərində, internatlarda, lisey, gimnaziyalar və peşə təhsili məktəblərində tərbiyəçi-müəllimlərin həftəlik iş vaxtı – 24 saat;

Ali və orta ixtisas təhsili müəssisələrində professor-müəllim heyətinin və konsertmeysterlərin bir stavka üzrə illik dərs yükü – 500 saatdan az olmamaqla (bu zaman ali təhsil müəssisələrində mühazirə, seminar, laborator və praktiki məşğələlərə, eləcə də mədəniyyət, musiqi, incəsənət təmayüllü ixtisaslarda fərdi dərslərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən, orta ixtisas təhsili müəssisələrində nəzəri, laborator və praktiki məşğələlərə, eləcə də mədəniyyət, musiqi, incəsənət təmayüllü ixtisaslarda fərdi dərslərə ayrılan vaxtın həcmi isə illik dərs yükünün 80 faizindən az olmamalıdır).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının
Baş naziri **A.Rasi-zadə”**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin göstərilən qərarının icrası ilə əlaqədar

ƏMR EDİRƏM:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il tarixli 215 nömrəli qərarı rəhbərlik və icra üçün qəbul edilsin.
2. Tabeliyindən asılı olmayaraq bütün dövlət ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri professor-müəllim heyətinin dərs yükünün Nazirlər Kabinetinin qərarına uyğun müəyyənləşdirilməsini təmin etsinlər.
3. Bütün tipdən olan ümumi təhsil məktəblərində, gimnaziya və liseylərdə, ilk peşə – ixtisas təhsili müəssisələrində, idman və incəsənət məktəblərində, məktəbdənkənar təhsil müəssisələrində iki stavkadan artıq dərs yükü olan müəllimlərin və dərnək rəhbərlərinin bu qərarla müəyyən olunmuş normadan (həftəlik 2 stavkadan) artıq dərs saatları üzrə əməkhaqqı cari tədris ilində mövcud qaydalara uyğun olaraq əvəzçilik və ya saathesabı qaydasında ödənilsin.
4. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinə, Gəncə Şəhər Təhsil İdarəsinə, rayon (şəhər) təhsil şöbələrinə, Nazirliyin tabeliyində olan və mərkəzləşmiş xərclərdən maliyyələşən bütün tipdən olan ümumi təhsil məktəblərinin, gimnaziya və liseylərin, ilk-peşə ixtisas təhsili müəssisələrinin, idman və incəsənət məktəblərinin, məktəbdənkənar təhsil müəssisələrinin, məktəbəqədər təhsil müəssisələrinin və digər aidiyyəti təhsil müəssisələrinin rəhbərlərinə tapşırılsın:
   4.1. Nazirlər Kabinetinin qərarına əsasən tarifləşmə cədvəllərinin yenidən hazırlanıb təsdiq edilməsini təmin etsinlər.
   4.2. Həftəlik dərs yükü 2 stavkadan artıq olan müəllimlərin, məşqçi müəllimlərin və dərnək rəhbərlərinin bu qərarla müəyyən olunmuş normadan (həftəlik 2 stavkadan) artıq

tədris etdikləri dərs saatlarının mövcud imkanlar daxilində 2 stavkanı aşmamaq şərti ilə cari dərs ilinin sonuna qədər müvafiq qaydada digər fənn müəllimləri və ya profil üzrə dərnək rəhbərləri, məşqçi müəllimlər arasında bölüşdürülməsi ilə bağlı zəruri tədbirlər görsünlər.

4.3. Təhsil müəssisələrinin ixtisaslı müəllim kadrları ilə təmin edilməsi üçün lazımi tədbirlərin görülməsini təmin etsinlər.

5. İqtisadiyyat şöbəsi (Ş.Əliyev):

5.1 Nazirliyin aidiyyəti struktur bölmələri ilə birlikdə 10 gün müddətində bu qərarın yerlərdə tətbiqi ilə bağlı təlimati məktubun layihəsinin hazırlanmasını və razılaşdırılmaq üçün Maliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

5.2 Tabelikdə olan və mərkəzləşmiş xərclərdən maliyyələşən bütün təlim-tərbiyə müəssisələrində çalışan pedaqoji işçilərin əməkhaqlarının bu qərarla müəyyən olunmuş dərs yükü normalarına uyğun ödənilməsini təmin etsin və bununla bağlı müvafiq tədbirlər görsün.

6. Ümumi şöbə əmrin çoxaldılaraq təhsil idarələrinə (şöbələrinə) və təlim-tərbiyə müəssisələrinə çatdırılmasını təmin etsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

Misir Mərdanov,
Azərbaycan Respublikasının təhsil naziri

“Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarının elan olunması barədə

(Azərbaycan Respublikası təhsil nazirinin
10 fevral 2011-ci il tarixli, 246 nömrəli əmri)

“Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli, 5 nömrəli qərarını elan edirəm:

«Azərbaycan Respublikasının Nazirlər Kabineti

Q Ə R A R

№ 5

Bakı şəhəri, 13 yanvar 2011-ci il

“Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.22-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. “Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının
Baş naziri **A.Rasi-zadə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarı ilə
təsdiq edilmişdir

Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi

1. Ümumi müddəalar

1.1. Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi (bundan sonra – Nümunəvi Nizamnamə) "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.15-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və tabeliyindən və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublika ərazisində yerləşən bütün ümumtəhsil məktəblərinin fəaliyyətini tənzimləyir.

1.2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, bu Nizamnaməni və digər müvafiq normativ hüquqi aktları rəhbər tutur.

1.3. Bu Nümunəvi Nizamnamə hər bir ümumtəhsil məktəbi üçün fərdi nizamnamənin hazırlanmasında əsas hesab olunur.

1.4. Dövlət ümumtəhsil məktəbinin yaradılması, yenidən təşkili və ləğvi "Dövlət büdcəsindən maliyyələşən təlim-tərbiyə və təhsil müəssisələrinin yaradılması, genişləndirilməsi, yenidən təşkili və ləğv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 14 may tarixli 67 nömrəli qərarı ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

1.5. Mülkiyyət formasına görə dövlət ümumtəhsil məktəbləri ilə yanaşı, bələdiyyə və özəl ümumtəhsil məktəbləri də təşkil edilə bilər.

1.6. Dövlət ümumtəhsil məktəblərində təhsil pulsuzdur.

1.7. Ümumtəhsil məktəbində siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

1.8. Ümumtəhsil məktəblərində təhsilalanların geyim forması hər bir məktəbin öz nizamnaməsi ilə müəyyən olunur.

1.9. Ümumtəhsil məktəbinin təsisçisinin məsuliyyəti, səlahiyyət dairəsi, təhsil müəssisəsi ilə qarşılıqlı öhdəlikləri Azərbaycan Respublikasının qanunvericiliyi, təsis müqaviləsi və təhsil müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

Ümumtəhsil məktəbinin təsisçisi ümumtəhsil məktəbinin dövlət qeydiyyatına alınmasına qədər əmələ gəlmiş, onun yaradılması ilə bağlı olan öhdəliklər üzrə məsuliyyət daşıyır. Ümumtəhsil məktəbi öz öhdəlikləri üçün ona mənsub olan bütün əmlaka cavabdehdir. Qanunvericilikdə və ya ümumtəhsil məktəbinin nizamnaməsində nəzərdə tutulan hallar istisna olmaqla, ümumtəhsil məktəbinin təsisçisi (iştirakçısı) ümumtəhsil məktəbinin öhdəlikləri üçün, ümumtəhsil məktəbi isə təsisçinin (iştirakçının) öhdəlikləri üçün cavabdeh deyildir.

1.10. Ümumtəhsil məktəblərində tədris dili dövlət dili – Azərbaycan dilidir.

1.11. Vətəndaşların və təsisçilərin istəyindən asılı olaraq, Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası fənləri tədris olunmaq şərtilə ümumtəhsil məktəblərində tədris müvafiq dövlət təhsil standartları əsasında digər dillərdə də aparıla bilər.

1.12. Ümumtəhsil məktəbində psixoloji, tibbi və iaşə xidməti Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamənin təsdiq edilməsi haqqında" 2002-ci il 29 aprel tarixli 74 nömrəli, "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2002-ci il 10 may tarixli 78 nömrəli, "Təhsil müəssisəsində təhsilalanlara pulsuz tibbi xidmətin göstərilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2010-cu il 25 noyabr tarixli 217 nömrəli və "Təhsil müəssisəsində iaşə və tibb xidmətinin təşkili Qaydası və Normaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 25 noyabr tarixli 218 nömrəli qərarlarına uyğun olaraq həyata keçirilir.

1.13. Ümumtəhsil məktəblərinin maddi-texniki bazası və təhsil infrastrukturu müəyyən edilmiş normativlərə uyğun olmalıdır.

1.14. Ümumtəhsil məktəbi qanunvericiliyə və öz nizamnaməsinə uyğun olaraq, təhsil birlikləri və assosiasiyalarına üzv olmaq hüququna malikdir.

1.15. Ümumtəhsil məktəbi hüquqi şəxsdir. Onun müvafiq qanunvericiliyə uyğun olaraq, xəzinə və banklarda hesablaşma hesabı və digər hesabları ola bilər. Ümumtəhsil məktəblərinin hüquqi ünvanı onların hər birinin nizamnaməsində göstərilir.

1.16. Ümumtəhsil məktəbi mövcud qanunvericilik çərçivəsində inzibati və maliyyə-təsərrüfat fəaliyyətini həyata keçirməkdə sərbəstdir.

1.17. Ümumtəhsil məktəblərinin maliyyə ili yanvarın 1-dən başlayıb dekabrın 31-də başa çatır.

1.18. Ümumtəhsil məktəbi öz fəaliyyətinə görə vətəndaşlar, cəmiyyət və dövlət qarşısında məsuliyyət daşıyır.

2. Ümumtəhsil məktəbinin strukturu

2.1. Ümumtəhsil məktəbi ibtidai (I-IV siniflər), ümumi orta (V-IX siniflər) və tam orta (X-XI siniflər) təhsil səviyyələrini əhatə edir.

2.2. Ümumtəhsil məktəbi ibtidai (I-IV siniflər), ümumi orta (I-IX siniflər), tam orta (I-XI siniflər) məktəb formasında ayrı-ayrılıqda da təşkil oluna bilər.

2.3. Ucqar kənd yerlərində şagirdlərin sayından asılı olmayaraq, ibtidai və ümumi orta ümumtəhsil məktəblərinin azkomplektli formada fəaliyyətinə yol verilir.

Şagirdlərin sayı az olan ibtidai siniflərdən komplekt siniflər təşkil olunur.

2.4. Hər il sentyabrda 5 yaşı tamam olan əqli və fiziki cəhətdən normal inkişaf etmiş uşaqların məktəb təliminə psixoloji cəhətdən hazır olmalarını təmin etmək, habelə azsaylı xalqların uşaqlarının tədris dili ilə bağlı çətinliklərini aradan qal-

dırmaq məqsədi ilə ümumtəhsil məktəblərində müəyyən olunmuş qaydalara əsasən məktəbdə hazırlıq sinifləri açıla bilər.

2.5. Ümumtəhsil məktəbinin I sinfinə hər il sentyabrın 15-dək 6 yaşı tamam olmuş uşaqlar qəbul edilirlər. Bununla belə, həmin müddətdə 6 yaşı tamam olmayan, lakin xüsusi istedadı ilə fərqlənən uşaqlar Azərbaycan Respublikası Təhsil Nazirliyinin müəyyən etdiyi qaydada I sinfə qəbul oluna bilərlər.

2.6. Ümumtəhsil məktəblərində siniflər şagirdlərin sayı 20 nəfər olmaqla müəyyən edilir. Zəruri hallarda ümumtəhsil müəssisələrində mövcud qanunvericiliyin tələbləri gözlənilməklə, siniflərdə şagirdlərin sayı 20 nəfərdən az olmaqla müəyyən edilə bilər.

2.7. Ümumtəhsil məktəblərində ümumi orta təhsil icbaridir.

3. Ümumtəhsil məktəbinin fəaliyyətinin əsasları

3.1. Ümumtəhsil məktəbi dövlətin tələbinə görə cinsindən, irqindən, dilindən, dinindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən asılı olmayaraq, hər bir vətəndaşa ümumi təhsil almaq imkanını təmin edir.

3.2. Ümumtəhsil məktəbində təhsil dünyəvi xarakter daşıyır, milli zəminə, mütərəqqi pedaqoji ənənələrə, eləcə də dünya təcrübəsinə əsaslanmaqla fərdin harmonik inkişafına xidmət edir.

3.3. Ümumtəhsil məktəbinin vəzifəsi təhsilalanların meyil, maraq və potensial imkanları, fərdi xüsusiyyətləri nəzərə alınmaqla, onların zəruri biliklərə və həyati bacarıqlara yiyələnməsini, yaradıcı, milli-mənəvi və ümumbəşəri dəyərlərə malik sağlam əqidəli, vətənpərvər, müasir dünyagörüşlü şəxsiyyət kimi formalaşmasını, müstəqil həyatda səmərəli təhsil və əmək fəaliyyətinə hazırlanmasını təmin etməkdən ibarətdir.

3.4. İbtidai təhsil səviyyəsində şagirdlərə oxu, yazı, hesablama, ünsiyyət bacarıqları aşılanır, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, xarici dildə sadə ünsiyyət baca-

rıqları və məntiqi təfəkkür elementləri, estetik zövq, sadə tətbiqi bacarıq və vərdişlər formalaşdırılır.

3.5. Ümumi orta təhsil şagirdlərin yazılı və şifahi nitq inkişafının, idrak fəaliyyətinin gücləndirilməsini, ölkənin tarixi, ədəbiyyatı, incəsənəti, mədəniyyəti, sosial-iqtisadi infrastrukturu, dünya dövlətləri arasında mövqeyi barədə təsəvvürlərinin genişləndirilməsini, onlarda informativ-kommunikativ, təhlil və tətbiq, problem həlli, əməkdaşlıq, müstəqil təhsillənmək, xarici dildə ünsiyyət qurmaq bacarıqlarının, tolerantlıq, milli-mənəvi dəyərlərə sadiqlik və digər bu kimi keyfiyyətlərin formalaşdırılmasını təmin edir.

3.6. Tam orta təhsil səviyyəsində meyil və maraqları nəzərə alınmaqla, şagirdlərin istedad və qabiliyyətinin reallaşdırılması üçün lazımi şərait yaradılır, onlarda ünsiyyət mədəniyyəti, təşkilatçılıq, tədqiqatçılıq, birgə fəaliyyət bacarıqları, obrazlı və tənqidi təfəkkür formalaşdırılır, informasiya-kommunikasiya texnologiyalarından sərbəst istifadə etmələri, xarici dillərdən birində (yaxud bir neçəsində) ünsiyyət saxlamaları təmin olunur.

3.7. Ümumtəhsil məktəbi dövlət təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi üzrə təşkilati-pedaqoji və metodik tədbirlərin həyata keçirilməsində müstəqildir.

3.8. Ümumtəhsil məktəbində, bir qayda olaraq, əyani təhsilalma forması tətbiq olunur. Müxtəlif səbəblərdən uzun müddət təhsildən kənarda qalmış şəxslərə, habelə hər hansı bir sahə üzrə xüsusi istedadı ilə fərqlənən şagirdlərə ümumtəhsil məktəblərində müəyyən olunmuş qaydalar daxilində həmin sahə üzrə fərdi təhsil təyin edilə bilər.

3.9. "Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısının və evdə təhsilin təşkili Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 77 nömrəli qərarına uyğun olaraq, səhhətinə görə bilavasitə ümumtəhsil məktəbində təhsil ala bilməyən şagirdlər üçün xüsusi tədris planı əsasında "Evdə təhsil" forması tətbiq edilir.

3.10. Ümumtəhsil məktəbinin bu və ya digər səbəbdən təhsildən kənarda qalan şagirdləri müəyyən edilmiş qaydalara əsasən ümumi orta və tam orta təhsil proqramları (kurikulumları) üzrə sərbəst hazırlaşıb eksternat qaydasında buraxılış imtahanı verərək, təhsil sənədi almaq hüququna malikdirlər.

4. Ümumtəhsil məktəbində təlim-tərbiyə prosesinin təşkili

4.1. Ümumtəhsil məktəbində təhsil prosesi öyrədici, tərbiyəedici və inkişafetdirici xarakter daşıyır.

4.2. Mülkiyyət formasından asılı olmayaraq, bütün ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesi dövlət standartlarına uyğun hazırlanmış müvafiq təhsil proqramları (kurikulumları) əsasında həyata keçirilir.

4.3. Pedaqoji prosesin "müəllim-şagird" əməkdaşlığı üzərində qurulması, müasir təlim strategiyalarının və çevik qiymətləndirmə mexanizmlərinin məqsədyönlü tətbiqi, şagirdlərin informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmələri təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsində başlıca istiqamətlərdən hesab olunur.

4.4. Ümumtəhsil məktəbinə kütləvi şagird qəbulu məktəbdə yaradılmış komissiyalar vasitəsilə I və X siniflər üzrə aparılır.

4.5. Ümumtəhsil məktəbinin I sinfinə qəbul üçün uşağın doğum haqqında şəhadətnaməsinin surəti və sağlamlığının vəziyyəti barədə müəyyən edilmiş nümunədə arayış təqdim olunur.

4.6. Ümumtəhsil məktəbinin X sinfinə qəbul üçün əsas sənəd ümumi orta təhsil haqqında şəhadətnamə hesab edilir.

4.7. Tam orta təhsil səviyyəsində təhsil təmayüllər üzrə (humanitar, texniki, təbiət və digər) təşkil olunur.

4.8. Azərbaycan Respublikasında yaşayan xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər ümumtəhsil məktəbinə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Azərbaycan Respublikası vətəndaşları üçün müəyyən etdiyi qaydalara uyğun qəbul olunurlar.

4.9. Ümumtəhsil məktəbində dərs məşğələləri, bir qayda olaraq, sentyabrın 15-də başlayıb mayın 31-də başa çatır. Dərs ili iki yarımilə bölünür:

birinci yarımil - 15 sentyabr - 29 dekabr;

ikinci yarımil - 6 yanvar - 31 may.

4.10. Dərs ili ərzində aşağıdakı tətillər müəyyən edilir:

6 gün payız tətili (12-17 noyabr);

7 gün qış tətili (30 dekabr - 5 yanvar);

8 gün yaz tətili (17-24 mart).

4.11. Birinci siniflər üçün 6 günlük (12-17 fevral) əlavə tətil müəyyən edilir.

4.12. Yaranmış şəraitdən və vəziyyətdən asılı olaraq, yerli təhsil orqanları ilə razılaşdırmaqla, tətil günlərində dəyişiklik edilə bilər.

4.13. Ümumtəhsil məktəbində dərslər və dərsdənkənar məşğələlər direktor tərəfindən təsdiq olunmuş cədvəl üzrə aparılır.

4.14. Dərs məşğələsinin müddəti hazırlıq siniflərində 35, digər siniflərdə 45 dəqiqə müəyyən edilir.

4.15. Ümumtəhsil məktəbində təhsilverənlərin və təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının keçirilməsi qaydaları səlahiyyətləri üzrə Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

4.16. İbtidai təhsil səviyyəsində tədris proqramlarının yerinə yetirilməməsinə görə şagirdlərin təkrar sinifdə saxlanmasına yol verilmir. Həmin şagirdlər psixoloji-tibbi-pedaqoji komissiyanın qərarı ilə digər tədris proqramları ilə təhsilə cəlb olunurlar.

4.17. İbtidai sinif şagirdlərinin təkrar sinifdə saxlanması üçün yeganə əsas uzunmüddətli xəstəlik, yaxud məktəbdən yayınma hesab edilir.

4.18. Ümumtəhsil məktəbində təlim-tərbiyə işləri planlaşdırılarkən, şagirdlərin meyil və marağına uyğun dərnək və məşğələlərin,

elmi cəmiyyətlərin, klub və studiyaların təşkilinə, onların milli-mənəvi, əxlaqi dəyərlər zəminində formalaşmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinə, habelə psixoloji cəhətdən gərgin ailə mühitində böyüyən uşaqlarla iş prosesində mütərəqqi pedaqoji yanaşmaları əks etdirən formaların tətbiqinə xüsusi diqqət yetirilir.

4.19. Ümumtəhsil məktəbində şagirdlərin təşkilatlanmasını, onlarda icraçılıq, təşkilatçılıq və ilkin idarəetmə bacarıqlarının formalaşmasını təmin etmək məqsədi ilə birliklər, eləcə də qanunvericilik əsasında fəaliyyət göstərən uşaq və gənclər ictimai təşkilatlarının orqanları yaradıla bilər.

5. Ümumtəhsil məktəbinin idarə olunması

5.1. Ümumtəhsil məktəbinin idarə olunması aşkarlıq, şəffaflıq və demokratiklik prinsiplərinə əsaslanır.

5.2. Ümumtəhsil məktəbində ali idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən pedaqoji şura hesab olunur. Pedaqoji şuranın əsasnaməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

5.3. Ümumtəhsil məktəbinin idarə olunmasının demokratikliyini və şəffaflığını təmin etmək məqsədi ilə məktəbdə idarə və özünüidarə orqanları (ümumi yığıncaq, himayəçilər, pedaqoji, elmi-metodiki, valideynlər, təhsilalanlar, valideyn şuraları və s.) yaradıla bilər.

5.4. Ümumtəhsil məktəbinə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təyin olunan direktor rəhbərlik edir. Məktəbin direktoru aşağıdakıları həyata keçirir:

5.4.1. konkret iş sahələri əhatə olunmaqla, məktəbin fəaliyyət istiqamətlərini müəyyənləşdirir, il ərzində görüləcək işləri planlaşdırır və onların həyata keçirilməsinə nəzarət edir;

5.4.2. ümumi təhsilin inkişafı ilə bağlı dövlət qərarlarından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün məsuliyyət daşıyır;

5.4.3. dövlət orqanlarında və ictimai təşkilatlarda rəhbərlik etdiyi məktəbi və onun mənafeyini təmsil edir;

5.4.4. təlim-tərbiyə işlərinin, o cümlədən istedadlı uşaqlarla iş sisteminin, dərsdənkənar tədbirlərin məqsədyönlü və səmərəli qurulması, fənlər üzrə təlim keyfiyyətinin yüksəldilməsi və uğurlu nəticələrin əldə edilməsi üçün bilavasitə cavabdehlik daşıyır;

5.4.5. məktəbdə sağlam mənəvi-psixoloji durumun mövcud olmasını, pedaqoji işçilərin yaradıcı və təşəbbüskar fəaliyyəti, müasir pedaqoji innovasiyaların tətbiqi üçün hərtərəfli şəraitin yaradılmasını təmin edir;

5.4.6 şagirdlərin təlim-tərbiyəsi sahəsində nailiyyətləri ilə fərqlənən müəllimlərin əməyinin stimullaşdırılması barədə yuxarı təşkilatlar qarşısında məsələ qaldırır;

5.4.7. məktəbin maddi-tədris bazasının möhkəmləndirilməsi, kadr təminatı, müəllimlərin ixtisasının artırılması, pedaqoji fəaliyyət üçün müəyyən edilmiş tələblərə cavab verməyən müəllimlərin işdən kənarlaşdırılması barədə təkliflər irəli sürür, maddi-tədris bazasının inkişaf etdirilməsi ilə əlaqədar qanunvericiliklə qadağan olunmayan vasitələrdən istifadə edir;

5.4.8. qanunvericiliklə müəyyən olunmuş qaydada məktəb üçün inventar və avadanlıqları satın alır və müxtəlif xidmətlərin göstərilməsini təşkil edir;

5.4.9. bu Nümunəvi Nizamnamədə göstərilən məqsəd və vəzifələrin həyata keçirilməsi ilə bağlı fiziki və hüquqi şəxslərlə münasibətdə məktəbi təmsil edir, onun adından müqavilələr bağlayır;

5.4.10. məktəbin fəaliyyətinin tənzimlənməsinə və qarşıda duran vəzifələrin yerinə yetirilməsinə istiqamətlənmiş müvafiq əmrlər verir.

5.5. Ümumtəhsil məktəbinin digər rəhbər, pedaqoji və texniki işçilərinin hüquq və vəzifələri mövcud qanunvericilik əsasında hazırlanmış öz nizamnaməsi ilə müəyyən olunur.

5.6. Ümumtəhsil məktəbinin idarə olunması ilə bağlı məsələlərə təhsili idarəetmə orqanları istisna olmaqla, dövlət və yerli özünüidarə orqanlarının və digər təşkilatların müdaxiləsinə yol verilmir.

6. Ümumtəhsil məktəbləri üzrə təhsil prosesinin iştirakçıları

6.1. Ümumtəhsil məktəbləri üzrə təhsil prosesinin iştirakçıları aşağıdakılardır:

6.1.1. təhsilalanlar – şagirdlər;

6.1.2. təhsilverənlər – müəllimlər, tərbiyəçilər, praktik psixoloqlar, sosioloq-pedaqoqlar, loqopedlər, dərnək və musiqi rəhbərləri, uşaq birliyi rəhbərləri, çağırışaqədərki hazırlıq rəhbərləri, pedaqoji fəaliyyətlə məşğul olan digər işçilər;

6.1.3. valideynlər və ya digər qanuni nümayəndələr;

6.1.4. təhsili idarəetmə orqanları.

6.2. Pedaqoji fəaliyyətlə müvafiq təhsil səviyyəsinə malik olmaqla yanaşı, yüksək mənəvi keyfiyyətləri ilə fərqlənən, ictimaiyyət arasında hörmət və nüfuz qazanan şəxslər məşğul ola bilərlər.

6.3. Ümumtəhsil məktəbinin pedaqoji kadrlarla komplektləşdirilməsi, onların attestasiyadan keçirilməsi, sosial müdafiəsi, stimullaşdırılması, yaxud intizam tənbehinə cəlb olunması müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

7. Ümumtəhsil məktəbində təhsilalanların hüquq və vəzifələri

7.1. Təhsilalanların hüquqları aşağıdakılardır:

7.1.1. təhsil alacağı ümumtəhsil məktəbini, tədris dilini, təhsilin təmayülünü, sinifdənkənar məşğuliyyəti sərbəst seçmək;

7.1.2. dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

7.1.3. ümumtəhsil məktəbinin mövcud infrastrukturundan (tədris laboratoriyaları, emalatxana, kitabxana, idman qurğularından və s.) istifadə etmək, dövlət və bələdiyyə müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq;

7.1.4. sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq, insan ləyaqətini və şərəfini alçaldan, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

7.1.5. müəyyən olunmuş qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;

7.1.6. təhsil prosesinin təşkilində və idarə olunmasında iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;

7.1.7. ümumtəhsil məktəbinin təhsil, ictimai və mədəni həyatında, elmi cəmiyyət, dərnək və birliklərdə, habelə onların yaradılmasında iştirak etmək;

7.1.8. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

7.2. Təhsil müəssisəsində qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, təhsilalanların təhsil prosesi ilə bağlı olmayan işlərə və tədbirlərə cəlb edilməsinə yol verilmir.

7.3. Təhsilalanların vəzifələri aşağıdakılardır:

7.3.1. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

7.3.2. pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

7.3.3. təhsil aldığı ümumtəhsil məktəbinin nizamnaməsinin tələblərinə riayət etmək;

7.3.4. dövlət, cəmiyyət, ailə qarşısında və özünə münasibətdə şəxsi məsuliyyətini dərk etmək;

7.3.5. təhsil qanunvericiliyinə, etik normalara və təhsil prosesi ilə bağlı qaydalara əməl etmək;

7.3.6. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

7.4. Özəl ümumtəhsil məktəblərində təhsilalanların sosial müdafiəsi məktəbin nizamnaməsi ilə tənzimlənir.

8. Ümumtəhsil məktəbində təhsilverənlərin hüquq və vəzifələri

8.1. Təhsilverənlərin hüquqları aşağıdakılardır:

8.1.1. normal və təhlükəsiz iş şəraiti ilə təmin olunmaq;

8.1.2. təhsil prosesinin təşkili və idarə olunmasında iştirak etmək;

8.1.3. tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək;

8.1.4. şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;

8.1.5. məktəbdə vəzifə tutmaq, müvafiq hallarda seçkili vəzifələrə seçmək və seçilmək;

8.1.6. ixtisasını artırmaq, staj keçmək, yeni ixtisas almaq;

8.1.7. müəyyən edilmiş qaydada mükafatlandırılmaq və təltif olunmaq;

8.1.8. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

8.2. Təhsilverənlərin vəzifələri aşağıdakılardır:

8.2.1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

8.2.2. təhsil proqramlarının mənimsənilməsini təmin etmək;

8.2.3. təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;

8.2.4. şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;

8.2.5. pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;

8.2.6. təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək;

8.2.7. uşaq və gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;

8.2.8. ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, əlavə məşğələlər, sinifdənxaric və məktəbdənkənar tədbirlər keçirmək;

8.2.9. qanunvericiliklə müəyyən edilmiş qaydada attestasiyadan keçmək;

8.2.10. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

9. Valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri

9.1. Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində hüquqları aşağıdakılardır:

9.1.1. yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxsləri) üçün təlim-tərbiyə müəssisəsini seçmək;

9.1.2. təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və yaxud himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;

9.1.3. təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;

9.1.4. təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək;

9.1.5. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

9.2. Valideynlərin və ya digər qanuni nümayəndələrin təhsil sahəsində vəzifələri aşağıdakılardır:

9.2.1. övladlarının (qəyyumluğunda və yaxud himayəsində olan şəxslərin) erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq;

9.2.2. övladlarını (qəyyumluğunda və yaxud himayəsində olan şəxsləri) humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək;

9.2.3. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

10. Ümumtəhsil məktəbinin maliyyə-təsərrüfat fəaliyyəti və maddi-texniki bazası

10.1. Ümumtəhsil məktəbi qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə ödənişli müxtəlif təhsil xidmətləri göstərmək, fiziki və hüquqi şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət təhsil müəssisəsinə büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir.

10.2. Dövlət ümumtəhsil məktəbinin maliyyələşdirilməsi müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir.

10.3. Təhsil sahəsinin inkişafının prioritet istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin qərarı ilə azkomplektli dövlət ümumtəhsil məktəbi mövcud normativlərdən üstün maliyyələşdirilə bilər.

10.4. Dövlət və bələdiyyə ümumtəhsil məktəbləri aşağıdakı mənbələrdən maliyyələşdirilir:

10.4.1. qanunvericiliyə uyğun olaraq dövlət büdcəsinin və yerli büdcənin vəsaitləri;

10.4.2. hüquqi və fiziki şəxslərin qanunvericiliyə uyğun verilən qrantları, vəsiyyət olunan vəsaitləri, ianələri və yardımları;

10.4.3. təhsil, istehsal, eləcə də qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə edilən vəsaitlər;

10.4.4. dövlət orqanları tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər;

10.4.5. məktəbin mülkiyyətində olan fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından qanunvericiliyə uyğun olaraq əldə edilən vəsaitlər;

10.4.6. beynəlxalq əməkdaşlıq nəticəsində qanunvericiliyə uyğun olaraq əldə edilən qrant və vəsaitlər;

10.4.7. qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən əldə olunan vəsaitlər.

10.5. Özəl ümumtəhsil məktəbi aşağıdakı mənbələrdən maliyyələşdirilir:

10.5.1. təhsil xidmətlərinə görə əldə edilən vəsaitlər;

10.5.2. təsisçilərin (himayəçilərin) vəsaitləri;

10.5.3. qanunvericiliyə uyğun olaraq aldıqları qrant və kreditlərin məbləğləri;

10.5.4. hüquqi və fiziki şəxslərin ianələri, yardımları, vəsiyyət etdikləri əmlak və bağışladıqları hədiyyələr;

10.5.5. təhsil, istehsal, məsləhət xidmətlərindən və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə edilən vəsaitlər;

10.5.6. qanunvericiliklə qadağan edilməyən digər mənbələr hesabına əldə olunan vəsaitlər.

10.6. Özəl ümumtəhsil məktəbi öz maliyyə vəsaitlərini sərbəst idarə edir.

10.7. Özəl ümumtəhsil məktəbi təhsil haqqının məbləğini hər bir təhsil səviyyəsi üzrə təhsil proqramlarına (kurikulumlarına) uyğun olaraq sərbəst müəyyən edir.

10.8. Özəl ümumtəhsil məktəbi ilə valideynlər və ya digər qanuni nümayəndələr arasında münasibətlər müqavilə ilə tənzimlənir.

10.9. Ümumtəhsil məktəbinin maddi-texniki bazasına binalar, torpaq sahələri, müxtəlif qurğular, maşın və avadanlıqlar, tibb, iaşə və idman obyektləri və digər əmlak daxildir.

10.10. Ümumtəhsil məktəbi istifadəsində olan maddi-texniki bazanın və əmlakın saxlanması, qorunması və onlardan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır.

10.11. Ümumtəhsil məktəbi göstərdiyi xidmətlərdən əldə etdiyi vəsait hesabına avadanlıq və digər vasitələr ala bilər.

10.12. Dövlət ümumtəhsil məktəbinin büdcədənkənar mənbələrdən daxil olan vəsaitlər hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxildir.

10.13. Ümumtəhsil məktəbinin əmlakı özəlləşdirilə və icarəyə verilə bilməz.

11. Ümumtəhsil məktəbinə aid sənədlər

11.1. Ümumtəhsil məktəbində tədris-pedaqoji və maliyyə-təsərrüfat sənədləri istifadə edilir.

11.2. Tədris-pedaqoji sənədlərə şagirdin şəxsi işi, sinif jurnalı, dərsdənkənar məşğələ jurnalı, günüuzadılmış qrup jurnalı, ümumi orta təhsil haqqında attestat blanklarının uçotu və verilməsi kitabı, tam orta təhsil haqqında attestat blanklarının, qızıl və gümüş medalların uçotu və verilməsi kitabı, şagird kontingentinə dair əlifba kitabı, pedaqoji işçilərin uçotu kitabı, pedaqoji şuranın protokol kitabı, məktəb üzrə əmr kitabı, buraxılan və əvəz edilən dərslərin uçotu kitabı aiddir.

11.3. Maliyyə-təsərrüfat sənədlərinə məktəbin texniki pasportu, daxil olan inventar və materialların uçotu kitabı, əsas vəsaitlərin qeydiyyatı kitabı, məktəb daxilində inventar və materialların paylanmasının uçotu kitabı, kitabxana fondunun uçotu kitabı aiddir.

11.4. Tədris-pedaqoji və maliyyə-təsərrüfat sənədlərinin düzgün aparılmasına, habelə məktəbə məxsus əmlakın mühafizəsi və təyinatına görə istifadəsinə cavabdehlik daşıyan şəxslər qanunvericiliyə əsasən məktəb direktorunun əmri ilə təyin olunurlar.

11.5. Pedaqoji və digər kateqoriyadan olan işçilər, təhsilalanlar və onların valideynləri (digər qanuni nümayəndələri) məktəbin əsas vəsaitlərinin, inventar-avadanlıqlarının və digər əmlakının korlanmasına görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

12. Ümumtəhsil məktəbinin beynəlxalq əlaqələri

12.1. Ümumtəhsil məktəbi beynəlxalq əlaqələr sahəsində aşağıdakı hüquqlara malikdir:

12.1.1. qanunvericiliyə uyğun olaraq xarici ölkələrin ümumtəhsil məktəbləri ilə birbaşa əlaqələr yaratmaq, onlarla təcrübə mübadiləsi aparmaq;

12.1.2. qarşılıqlı dəvət əsasında əməkdaşlıq etdiyi məktəbin nümayəndə heyətini qəbul etmək, həmin məktəbə nümayəndələr göndərmək;

12.1.3. birgə seminar, konfrans və digər tədbirlər təşkil etmək, təhsil layihələrində iştirak etmək;

12.1.4. beynəlxalq birlik və assosiasiyalara üzv olmaq".

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli, 5 nömrəli qərarı ilə təsdiq olunmuş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin tətbiqi ilə əlaqədar

ƏMR EDİRƏM:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarı ilə təsdiq olunmuş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi" rəhbərlik və icra üçün qəbul edilsin.

2. Ümumtəhsil məktəblərinin direktorlarına tapşırılsın ki, 1 (bir) ay müddətində Nümunəvi Nizamnaməyə uyğun olaraq rəhbərlik etdikləri təhsil müəssisələrinin fərdi nizamnaməsini hazırlayıb təsdiq və qanunvericiliklə müəyyən olunmuş qaydada Ədliyyə Nazirliyinin müvafiq qurumunda qeydiyyata alınmasını həyata keçirmək üçün Təhsil Nazirliyinə təqdim etsinlər.

3. Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, tabeliyindən və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublika ərazisində yerləşən bütün ümumtəhsil məktəblərinin direktorları:

3.1. "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nin pedaqoji kollektivlərdə ətraflı öyrənilməsini, Nümunəvi Nizamnamə ilə valideynlərin yaxından tanış olmalarını təmin etsinlər.

3.2. Ümumtəhsil məktəblərinin bütün istiqamətlər üzrə fəaliyyətinin fərdi nizamnamələrindən, habelə bu Nümunəvi Nizamnamədən irəli gələn müddəa və tələblər əsasında qurulmasına müntəzəm nəzarət etsinlər.

4. Kənd rayonları üzrə ümumi təhsil şöbəsi (A.Əhmədov) 2 həftə müddətinə Nümunəvi Nizamnamənin müddəalarının həyata keçirilməsi istiqamətləri barədə izah xarakterli təlimati məktub hazırlayıb rəhbərliyə təqdim etsin.

5. Nümunəvi Nizamnamənin 13 yanvar 2011-ci il tarixdən qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 12 mart tarixli 109 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ümumtəhsil məktəbinin nümunəvi əsasnaməsi" qüvvədən düşmüş hesab olunsun.

6. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin əlavəsi ilə birlikdə "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını təmin etsin.

7. Ümumi şöbə (H.Məmmədova) əmrin əlavəsi ilə birlikdə çoxaldılıb yerlərə göndərilməsini təşkil etsin.

8. Əmrin icrasına nəzarət nazir müavini İ.İsgəndərova həvalə olunsun.

Misir Mərdanov,
Azərbaycan Respublikasının təhsil naziri

“Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarının icrası barədə

(Azərbaycan Respublikası təhsil nazirinin
09 fevral 2011-ci il tarixli, 234 nömrəli əmri)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarını elan edirəm:

**“Azərbaycan Respublikasının
Nazirlər Kabineti**

QƏRAR

№ 7

Bakı şəhəri, 14 yanvar 2011-ci il

“Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı”nın təsdiq edilməsi haqqında

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidenininin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.22-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbayan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. “Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi” təsdiq edilsin (1 nömrəli əlavə).

2. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı” təsdiq edilsin (2 nömrəli əlavə).

3. “Orta ixtisas təhsili müəssisələrinin Əsasnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 30 mart tarixli 73 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının
Baş naziri **A.Rasi-zadə”**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 14 yanvar tarixli 7 nömrəli qərarı ilə
təsdiq edilmişdir.
1 nömrəli əlavə

Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi

1. Ümumi müddəalar

1.1. Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmışdır və tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, respublika ərazisində yerləşən bütün orta ixtisas təhsili müəssisələrinin fəaliyyətini tənzimləyir.

1.2. Bu Nümunəvi Nizamnamə hər bir orta ixtisas təhsili müəssisəsi üçün fərdi nizamnamənin hazırlanmasında əsas hesab olunur.

1.3. Orta ixtisas təhsili müəssisəsinin nizamnaməsi təhsil müəssisəsinin pedaqoji şurası tərəfindən qəbul olunur və təsisçisi (Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi nizamnamələr istisna olmaqla) tərəfindən təsdiq edilir. Bələdiyyə və özəl orta ixtisas təhsili müəssisələrinin nizamnamələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəyi əsasında təsisçilər tərəfindən təsdiq edilir.

1.4. Orta ixtisas təhsili müəssisəsi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmrlərini, kollegiyasının qərarlarını və bu Nümunəvi Nizamnaməni rəhbər tutur.

1.5. Orta ixtisas təhsili müəssisəsində siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

1.6. Orta ixtisas təhsili müəssisəsi işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, təhsil müəssisələrinə qəbul olunmada, təhsil alanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, təhsilin növbəti pillədə davam etdirilməsində, ixtisasın artırılmasında və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradır.

1.7. Orta ixtisas təhsili müəssisələrində təhsilalanların geyim forması hər bir təhsil müəssisəsinin öz nizamnaməsi ilə müəyyən olunur.

1.8. Təhsil qanunvericiliyinə əsasən orta ixtisas təhsili müəssisələrinin növü – kollecdir.

Kollec – orta ixtisas proqramları əsasında təhsil xidmətləri göstərən və subbakalavr peşə-ixtisas dərəcəsi vermək hüququ olan təhsil müəssisəsidir.

1.9. Orta ixtisas təhsili müəssisələrinin hüquqi ünvanı onların hər birinin nizamnaməsində göstərilir.

1.10. Orta ixtisas təhsili müəssisələri üçün maliyyə ili yanvarın 1-dən başlayıb dekabrın 31-də başa çatır.

1.11. Azərbaycan Respublikasında mülkiyyət növünə görə dövlət, bələdiyyə və özəl orta ixtisas təhsili müəssisələri fəaliyyət göstərir. Mülkiyyət növü müvafiq qanunvericiliyə uyğun yaradılmış orta ixtisas təhsili müəssisəsinin nizamnaməsi ilə müəyyənləşdirilir.

1.12. Dövlət, bələdiyyə və özəl orta ixtisas təhsili müəssisələrinin yaradılması, yenidən təşkili və ləğv edilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

1.13. Orta ixtisas təhsili müəssisəsinin (kollecin) adı onun yaradıldığı zaman müəyyənləşdirilir və yenidən təşkil olunduğu halda dəyişdirilə bilər. Orta ixtisas təhsili müəssisəsinin adının dəyişdirilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, tabeliyində orta ixtisas təhsili müəssisələri olan müvafiq dövlət idarəetmə orqanlarının vəsatəti (Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırıldıqdan sonra)

əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir.

1.14. Orta ixtisas təhsili müəssisəsinin lisenziyalaşdırılması və akkreditasiyası müvafiq qanunvericilik aktlarına uyğun həyata keçirilir.

1.15. Azərbaycan Respublikasında hər bir orta ixtisas təhsili müəssisəsi təhsil fəaliyyəti göstərmək üçün qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Təhsil Nazirliyindən xüsusi razılıq (lisenziya) almalıdır. Dövlət orta ixtisas təhsili müəssisələrinə xüsusi razılıq (lisenziya) müddətsiz verilir. Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən təsis edilmiş bələdiyyə və özəl orta ixtisas təhsili müəssisələrinə xüsusi razılıq (lisenziya) beş il müddətinə verilir. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş orta ixtisas təhsili müəssisələrinə isə xüsusi razılıq (lisenziya) üç il müddətinə verilir.

1.16. Orta ixtisas təhsili müəssisəsinin akkreditasiyası təhsil prosesinin təşkilinin, maddi-texniki bazasının, təhsil proqramlarının, kadr potensialının, maliyyə resurslarının və təhsil infrastrukturunun qəbul olunmuş dövlət standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədi ilə aparılır və orta ixtisas təhsili müəssisəsinin statusunun müəyyən edilməsi, onun fəaliyyətinin növbəti müddətə ("Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddətlərdən az olmamaq şərtilə) uzadılması üçün hüquqi təminat yaradır.

Orta ixtisas təhsili müəssisəsinin akkreditasiyası "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli qərarına uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Akkreditasiya müvafiq keyfiyyət sənədinin – sertifikatın verilməsi ilə başa çatır.

1.17. Xarici hüquqi şəxslərin, onların filiallarının və nümayəndəliklərinin, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin

öz ölkələrində təhsil fəaliyyəti ilə məşğul olmaq üçün aldıqları lisenziyaların Azərbaycan Respublikasında tanınması dövlətlərarası müqavilələrlə müəyyən edilir.

Respublika ərazisində xarici ölkələrin orta ixtisas təhsili müəssisələrinin yaradılması, yenidən təşkil və ləğv edilməsi dövlətlərarası müqavilələr əsasında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir.

1.18. Azərbaycan Respublikasında hüquqi şəxs kimi dövlət qeydiyyatına alınmış, fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilmiş və akkreditasiya olunmuş orta ixtisas təhsili müəssisəsinin fəaliyyətinə hüquqi təminat verilir.

1.19. Orta ixtisas təhsili müəssisəsi qanunvericiliyə və öz nizamnaməsinə uyğun olaraq, ölkənin və xarici dövlətlərin ərazisində filiallar açmaq (dövlət orta ixtisas təhsili müəssisəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılmaqla), habelə təhsilin inkişafı və təkmilləşdirilməsi məqsədi ilə ictimai təşkilatlarla təhsil birlikləri, assosiasiyaları və ittifaqları yaratmaq, eləcə də həmin təşkilatlara üzv olmaq hüququna malikdir.

1.20. Orta ixtisas təhsili müəssisələrinin bir sıra struktur bölmələri – filialları, şöbələri, fənn birləşmə komissiyaları, kitabxanaları, əlavə təhsil üçün müvafiq bölmələri, tədris-təcrübə təsərrüfatları, tədris emalatxanaları, metodiki xidmət bölmələri, idman bazaları, tədris teatr və studiyaları, konsert zalları və digər struktur bölmələri ola bilər.

Orta ixtisas təhsili müəssisəsinin strukturu maddi-texniki bazası və kadr potensialı nəzərə alınmaqla, onun pedaqoji şurası tərəfindən müəyyənləşdirilir və təhsil müəssisəsinin rəhbəri (direktoru) tərəfindən təsdiq edilir. Orta ixtisas təhsili müəssisəsinin struktur bölmələrinin fəaliyyəti və funksiyaları onun nizamnaməsində öz əksini tapır.

Orta ixtisas təhsili müəssisəsinin struktur bölmələri tədris prosesinin təşkilində, onun həyata keçirilməsində bilavasitə iştirak edir, pedaqoji şuranın qərarlarını, direktorun əmr və sərəncamlarını yerinə yetirir.

1.21. Azərbaycan Respublikasının dövlət orta ixtisas təhsili müəssisələrində təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir.

1.22. Orta ixtisas təhsili müəssisəsi təhsil və tərbiyə mərkəzi kimi öz nizamnaməsinə uyğun aşağıdakı vəzifələri yerinə yetirir:

- hər bir şəxsin intellektual, mədəni və mənəvi inkişafı, orta ixtisas təhsili alma tələblərinin ödənilməsi;
- təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkil edilməsi;
- yüksəkixtisaslı kadrların hazırlanması;
- ixtisasartırma və kadrların yenidən hazırlanmasının təmin edilməsi;
- xarici əlaqələrin təmin edilməsi.
- Həmin vəzifələri yerinə yetirmək üçün orta ixtisas təhsili müəssisəsi:
- orta ixtisas təhsilinin və ayrı-ayrı ixtisasların dövlət təhsil standartlarına uyğun tədris sənədlərini və təhsil proqramlarını səlahiyyətləri çərçivəsində müstəqil hazırlayır (plan, proqram, tədris prosesinin təşkilinə aid digər sənədləri);
- tədris prosesini təşkil edir və onun monitorinqini həyata keçirir;
- təlim prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə edir;
- pedaqoji şuranın işini təşkil edir və həyata keçirir;
- konfranslar, seminarlar, olimpiadalar və s. təşkil edir və həyata keçirir;
- Boloniya Bəyannaməsinin əsas prinsiplərinin tətbiqi ilə bağlı müasir informasiya və metodiki təminatı, qlobal kompyuter şəbəkəsi (internet) üçün informasiya resurslarını yaradır;
- dərslik, dərs vəsaiti, tədris və tədris-metodiki ədəbiyyatları hazırlayır və nəşr edir;
- tələbələrə və müəllim heyətinə idman, sağlamlıq, iaşə və məişət xidmətləri göstərir;
- təsərrüfat və maliyyə fəaliyyətini həyata keçirir;

- orta ixtisas təhsili müəssisəsinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində işlər görür;
- müəllim-tələbə mübadiləsini və onların xaricdə təcrübə keçmələri üçün beynəlxalq əlaqələri yaradır.

1.23. Orta ixtisas təhsili pilləsində aşağıdakı təhsilalma formaları müəyyən edilir:
- əyani;
- qiyabi;
- distant (məsafədən);
- sərbəst (eksternat).

1.24. Orta ixtisas təhsili proqramlarının əyani forma üzrə normativ təhsil müddəti ümumi orta təhsil bazasından qəbul olunanlar üçün 3-4, tam orta təhsil bazasından qəbul olunanlar üçün isə 2-3 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır. Bu müddət ayrı-ayrı ixtisasların təhsil proqramları ilə müəyyənləşdirilir.

Orta ixtisas təhsilini bitirən məzunlara "subbakalavr" ixtisas dərəcəsi verilir.

Orta ixtisas təhsili haqqında diplom ali təhsil müəssisələrinin bakalavr səviyyəsinə daxil olmaq hüququ verir və növbəti təhsil pilləsində təhsil almaq üçün əsas sayılır.

Orta ixtisas təhsili pilləsini fərqlənmə diplomu ilə başa vuran məzunlar (subbakalavrlar) ali təhsilin bakalavr səviyyəsində uyğun ixtisaslar üzrə təhsillərini davam etdirdikləri halda, orta ixtisas təhsili pilləsində müvafiq fənlər üzrə qazandıqları kreditlər (həmin fəndən "əla" qiymət olduqda) bakalavr səviyyəsində nəzərə alına bilər.

Həmin fənlərin müəyyənləşdirilməsi və onlar üzrə kreditlərin nəzərə alınması ali təhsil müəssisələri tərəfindən müvafiq qaydalara uyğun olaraq həyata keçirilir. Orta ixtisas təhsili almış məzun ixtisasına uyğun olan bütün sahələrdə əmək fəaliyyəti ilə məşğul ola bilər.

1.25. Orta ixtisas təhsili müəssisəsi öz imkanları daxilində nizamnaməsinə uyğun olaraq, orta ixtisas təhsilini bitirməsi haqqında dövlət sənədi olan vətəndaşlara əlavə təhsil almaq

imkanı yarada bilər. Əlavə təhsil hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafı, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifəsini daşıyır. Bu zaman əlavə təhsil aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- ixtisasartırma;
- kadrların yenidən hazırlanması;
- stajkeçmə və kadrların təkmilləşdirilməsi;
- təkrar orta ixtisas təhsili.

Əlavə təhsilin məzmunu və təşkili qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir.

1.26. Orta ixtisas təhsili müəssisələrində tədris ayrı-ayrı ixtisaslar üzrə təhsilin məzmununu və mənimsəmə qaydasını müəyyən edən təhsil proqramları (kurikulumlar) üzrə həyata keçirilir.

2. Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu

2.1. Azərbaycan Respublikasında tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

2.2. Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu vətəndaşların təhsil hüququnu tam təmin etməklə, müvafiq təhsil səviyyəsinə uyğun olan təhsil proqramlarını daha yaxşı mənimsəmiş qabiliyyətli və hazırlıqlı abituriyentlərin sərbəst ixtisas və təhsil müəssisəsi seçimi əsasında müsabiqə yolu ilə həyata keçirilir. Mövcud qanunvericiliyə uyğun olaraq orta ixtisas təhsili pilləsinə ümumi orta təhsilli və tam orta təhsilli şəxslər qəbul oluna bilərlər.

2.3. Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planı müvafiq dövlət, həmçinin ayrı-ayrı müəssisə və təşkilatların sifarişi əsasında orta ixtisas təhsili müəssisəsinin imkanları nəzərə

alınmaqla, orta ixtisas təhsili müəssisələrinin və tabeliyində orta ixtisas təhsili müəssisələri olan nazirlik və təşkilatların təklifləri əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir.

2.4. Hər bir təhsilalan, valideyn və ya digər qanuni nümayəndə orta ixtisas təhsili müəssisələrində tədris prosesini tənzimləyən aşağıdakı hüquqi sənədlərlə tanış ola bilər:

- təhsil müəssisəsinin nizamnaməsi;
- təhsil sahəsində fəaliyyət üçün xüsusi razılıq (lisenziya);
- təhsil müəssisəsinin dövlət akkreditasiyası haqqında sənədi.

3. Orta ixtisas təhsili müəssisəsinin tədris fəaliyyəti

3.1. Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrində tədris dili dövlət dili – Azərbaycan dilidir. Təlim orta ixtisas təhsili müəssisələrinin imkanları nəzərə alınmaqla, xarici dillərdə də aparıla bilər.

3.2 Orta ixtisas təhsili müəssisələri aşağıdakı təhsil proqramlarını (kurikulumları) həyata keçirir:

- tam orta təhsil (ümumi orta təhsil bazasından təhsil alanlar üçün);
- orta ixtisas təhsili;
- əlavə təhsil.

3.3. Orta ixtisas təhsili proqramlarına və onların həyata keçirilməsinə qoyulan ümumi tələblər dövlət təhsil standartı ilə müəyyənləşdirilir.

Orta ixtisas təhsili proqramı aşağıdakıları əhatə edir:

- orta ixtisas təhsili üzrə ixtisas təsnifatını. Təsnifat respublika iqtisadiyyatının və sosial sferanın inkişaf istiqamətləri nəzərə alınmaqla hazırlanır və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir;
- orta ixtisas təhsilinin ayrı-ayrı ixtisasları üzrə təlim nəticələrini və məzmun standartlarını, tədris olunan

fənləri, həftəlik dərs yükünü və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkilini, tədris planlarını, fənn proqramlarını, metodiki təminatla bağlı tövsiyələri, təlim nəticələrinin qiymətləndirilməsini və monitorinqin aparılması qaydalarını özündə əks etdirən müvafiq təhsil proqramlarını. Bu sənədlər səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və orta ixtisas təhsili müəssisələri tərəfindən müəyyən edilir.

3.4. Orta ixtisas təhsilinin ayrı-ayrı ixtisasları üzrə təhsil proqramları müvafiq tədris-metodiki sənədlər əsasında həyata keçirilir.

Bu sənədlər Azərbaycan Respublikasının Təhsil Nazirliyi və orta ixtisas təhsili müəssisələri tərəfindən müəyyənləşdirilir.

Orta ixtisas təhsili müəssisəsi orta ixtisas təhsilinin dövlət standartı çərçivəsində orta ixtisas təhsili proqramlarında müvafiq dəqiqləşdirmələr apara bilər və bu, təhsil müəssisəsinin nizamnaməsində öz əksini tapmalıdır.

3.5. Təhsil proqramları üzrə normativ təhsil müddətləri orta ixtisas təhsili haqqında dövlət standartı ilə müəyyən edilir.

3.6. Orta ixtisas təhsili müəssisələrində tədris prosesinin təşkili orta ixtisas təhsilinin dövlət standartlarına uyğun hazırlanmış və orta ixtisas təhsili müəssisəsinin rəhbəri tərəfindən təsdiq edilmiş tədris planı əsasında həyata keçirilir.

3.7. Orta ixtisas təhsili müəssisəsində tam orta təhsil bazasından təhsil alanların auditoriya dərslərinin həcmi həftədə 30 saatdan artıq olmamalıdır.

Ümumi orta təhsil bazasından təhsil alanların birinci tədris ilində auditoriya dərslərinin həcmi həftədə 36 saatdan, digər tədris illərində isə 30 saatdan artıq olmamalıdır.

Tədris planında tədris işinin həcmi kredit vahidləri ilə müəyyənləşdirilir və bir kredit vahidi 30 (15 saat auditoriya və 15 saat tələbənin sərbəst işi) saata bərabərdir.

Əyani forma üzrə məcburi auditoriya dərslərinin maksimal həcmi ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramları ilə müəyyənləşdirilir.

Qiyabi forma üzrə isə tələbələrin auditoriya dərslərinin həcmi ildə 180-200 saata qədər nəzərdə tutulur.

Hər tədris ilində təlim müddəti 15 sentyabr tarixindən başlanır və ixtisas üzrə tədris planına müvafiq olaraq yekunlaşır.

Tədris ili iki semestrdən (payız və yaz) ibarətdir. Bundan əlavə, yay tətili müddətində 6 həftədən çox olmayaraq, ödənişli əsaslarla yay semestri də təşkil oluna bilər.

Tədris ili üzrə nəzəri təlimin müddəti tam orta təhsil bazasından təhsil alanlar üçün 30 həftə (hər semestr üzrə 15 həftə) və imtahan sessiyasının müddəti 10 həftədir (semestrlər üzrə 5 həftə). Ümumi orta təhsil bazasından təhsil alanlar üçün isə birinci tədris ilində nəzəri təlimin müddəti 36 həftə (hər semestr üzrə 18 həftə), imtahan sessiyasının müddəti 7 həftədir. Digər tədris illərində isə bu müddət müvafiq olaraq 30 həftə (hər semestr üzrə 15 həftə) və 10 həftədir (hər semestr üzrə 5 həftə).

Bütün təlim müddətində istehsalat təcrübəsi üçün nəzərdə tutulan müddət 8-20 həftədir.

Hər tədris ilində tətil müddəti 7-12 həftədir (o cümlədən qış tətili müddəti 2 həftədən az olmayaraq).

Orta ixtisas təhsili müəssisələrində dərs növlərinə nəzəri, praktiki və laboratoriya məşğələləri, yoxlama işləri, kurs işi (layihəsi) və digərləri daxildir.

Akademik saat – 45 dəqiqədir. Bütün növ dərslər üçün 2 akademik saat müəyyənləşdirilir. Akademik saatlararası fasilə 5 dəqiqədən az olmamalıdır.

Orta ixtisas təhsili proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır. Dövlət attestasiyası bütün təhsilalanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 5 həftədir.

Təhsilalanların yekun attestasiyası Dövlət Attestasiya Komissiyası tərəfindən həyata keçirilir. Dövlət Attestasiya Komissiyasının yaradılması və işinin təşkili Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir. Aralıq attestasiya imtahan formasında həyata

keçirilir, hər semestr üzrə imtahanların siyahısı təhsilalanların nəzərinə çatdırılır.

Təhsilalanların cari, aralıq və dövlət attestasiyası zamanı biliyinin qiymətləndirilməsi çoxballı (100 ballı) sistemlə həyata keçirilir və bu sistemdə A (əla), B (çox yaxşı), C (yaxşı), D (kafi), E (qənaətbəxş) və F (qeyri-kafi) qiymətləri müəyyənləşdirilir. Balların göstərilən qiymətlər üzrə bölgüsü Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir.

İmtahan sessiyalarının təşkili, tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsi, dövlət attestasiyasının keçirilməsi qaydaları öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən və təhsil müəssisələrinin nizamnamələri ilə müəyyənləşdirilir.

3.8. Dövlət orta ixtisas təhsili müəssisələrində əyani forma üzrə dövlət hesabına təhsilalanların fəaliyyətini stimullaşdırmaq məqsədi ilə onlara qanunvericiliklə müəyyən edilmiş qaydada təqaüdlər (o cümlədən adlı təqaüdlər) və yardımlar verilir.

3.9. Təhsilalanların bir təhsil proqramından və ya orta ixtisas təhsili müəssisəsindən digərinə köçürülməsi, xaric edilməsi, akademik məzuniyyət alması və bərpa olunması məsələləri Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş qaydalarla tənzimlənir.

3.10. Orta ixtisas təhsili pilləsinin proqramlarını başa vurmuş və yekun dövlət attestasiyasından keçmiş tələbələrə orta ixtisas təhsili müəssisəsini bitirmələri barədə "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli qərarına uyğun olaraq dövlət nümunəli sənəd – diplom verilir. Həmin diplomun əlavəsində təhsilalanlar tərəfindən mənimsənilmiş fənlər, onların kreditlə həcmi və qiymətlər göstərilir.

Orta ixtisas təhsili pilləsini müxtəlif səbəblərdən başa vurmayan şəxslərə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi

Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli qərarına əsasən arayış verilir.

4. Orta ixtisas təhsili müəssisəsinin idarə olunmasının təşkili

4.1. Orta ixtisas təhsili müəssisəsinin nizamnaməsi təhsil müəssisəsinin fəaliyyətinin məqsədini, onun idarə olunması qaydalarını, təhsilalanların və işçilərin statusunu, maliyyə-təsərrüfat fəaliyyətinin strukturunu və digər məsələləri müəyyənləşdirir.

4.2. Orta ixtisas təhsili müəssisəsinin idarə olunmasında demokratikliyi və şəffaflığı təmin etmək məqsədi ilə təhsil müəssisəsində özünüidarə orqanları (ümumi yığıncaq, himayəçilər, metodiki, pedaqoji, təhsilalanlar və qəyyumlar şurası və s.) yaradıla bilər. Həmin qurumların yaradılması qaydaları və səlahiyyətləri orta ixtisas təhsili müəssisəsinin nizamnaməsi ilə müəyyənləşdirilir.

4.3. Orta ixtisas təhsili müəssisəsinin ali idarəetmə orqanı Pedaqoji Şuradır. Pedaqoji Şuranın yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən “Pedaqoji Şura haqqında Əsasnamə” və təhsil müəssisəsinin nizamnaməsi ilə tənzimlənir. Pedaqoji Şuranın səlahiyyət müddəti 1 tədris ilidir.

Pedaqoji Şuranın tərkibinə orta ixtisas təhsili müəssisəsinin direktoru (sədr), direktor müavinləri, şöbə müdirləri, fənn birləşmə komissiyalarının sədrləri, müəllimlər, fiziki tərbiyə və çağırışaqədərki hazırlıq rəhbərləri, tədris-istehsalat emalatxanalarının müdirləri, həmkarlar təşkilatının, baza idarə və müəssisələrinin nümayəndələri daxil olurlar.

4.4. Orta ixtisas təhsili müəssisəsinin fəaliyyətinə rəhbərlik bilavasitə direktor tərəfindən həyata keçirilir. Direktor Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təyin olunur və ya vəzifəsindən azad edilir.

Bələdiyyə orta ixtisas təhsili müəssisəsinə rəhbərlik bələdiyyə tərəfindən təyin olunmuş direktor tərəfindən həyata keçirilir.

Özəl orta ixtisas təhsili müəssisəsinə rəhbərliyi həmin orta ixtisas təhsili müəssisəsinin təsisçilər (himayəçilər, qəyyumlar) şurası tərəfindən təyin edilmiş direktor həyata keçirir.

Direktor əvəzçiliklə təyin edilə bilməz.

Dövlət orta ixtisas təhsili müəssisələrinin tədris və tərbiyə işləri üzrə direktor müavinləri orta ixtisas təhsili müəssisəsi rəhbərinin (direktorun) təqdimatı əsasında tabeliyində orta ixtisas təhsili müəssisəsi olan mərkəzi icra hakimiyyəti orqanı tərəfindən təyin olunurlar.

Bələdiyyə və özəl orta ixtisas təhsili müəssisələrinin tədris və tərbiyə işləri üzrə direktor müavinləri müvafiq olaraq bələdiyyə və təsisçi tərəfindən təyin olunurlar.

Direktor mütəxəssis hazırlığının keyfiyyətinə, orta ixtisas təhsili müəssisəsində tədris, tərbiyə, maliyyə-təsərrüfat işinin təşkilinə və büdcə qanunvericiliyinin icrasına görə məsuliyyət daşıyır.

Direktor orta ixtisas təhsili müəssisəsinin inzibati-funksional idarəetmə strukturunu və ştat cədvəlini təsdiq edir.

Direktorun səlahiyyətləri orta ixtisas təhsili müəssisəsinin nizamnaməsi ilə müəyyən edilir.

4.5. Fənn birləşmə komissiyaları orta ixtisas təhsili müəssisəsinin inzibati struktur bölməsi olaraq, bir və ya bir neçə ixtisas üzrə mütəxəssis hazırlığının həyata keçirilməsinə və tərbiyə işlərinə rəhbərlik edir.

4.6. Orta ixtisas təhsili müəssisəsinin şöbələrinə şöbə müdiri rəhbərlik edir. Şöbə müdiri vəzifəsinə təyinolunma müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Şöbə müdiri:

- şöbənin tədris və tərbiyə işlərinin təşkilinə və yerinə yetirilməsinə bilavasitə rəhbərlik edir;
- təhsil proqramlarının dövlət təhsil standartlarının tələblərinə uyğun həyata keçirilməsini təmin edir;

- tələbələrin istehsalat təcrübəsinin həyata keçirilməsi üçün şərait yaradır və onu nəzarətdə saxlayır;
- şöbə üzrə tədris məşğələlərinin cədvəlini tərtib etmək üçün material hazırlayır və cədvəlin yerinə yetirilməsinə nəzarət edir;
- tələbələrin müstəqil işlərinə nəzarəti təşkil edir və onların səmərəli fəaliyyətləri üçün şərait yaradılmasını təmin edir;
- tələbələrin imtahanlarının keçirilməsinə nəzarəti təşkil edir, bütün imtahan sessiyalarının normal, mövcud tələblərə uyğun keçirilməsinə cavabdehlik daşıyır;
- tələbələrin məktəbdən xaric olunması, bərpası, semestr imtahanlarına və dövlət attestasiyasına buraxılmasına dair direktora təqdimat verir;
- şöbədə təhsil alan tələbələrə mövcud qaydada təqaüdə təqdim edir;
- şöbənin profilinə uyğun dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, təhsil normalarının, tədris planlarının, metodiki göstərişlərin hazırlanmasına təşəbbüs göstərir və bu işə ümumi rəhbərlik edir;
- şöbədə hazırlanan ixtisaslar üzrə peşəyönümü işinin aparılmasını təşkil edir və onun lazımi səviyyədə aparılmasına məsuliyyət daşıyır;
- şöbədə hazırlanması mümkün və zəruri olan ixtisasları müəyyənləşdirir, illik və perspektiv qəbul planları üzrə orta ixtisas təhsili məktəbinin rəhbərinə təkliflər təqdim edir;
- orta ixtisas təhsili müəssisəsində şöbə ilə bağlı olan bütün tədbirlərdə, komissiyalarda, yığıncaq və şuralarda fakültəni təmsil edir;
- şöbənin işində iştirak edən bütün tədris-köməkçi heyətin işinə nəzarət edir.

4.7. Fənn birləşmə komissiyası orta ixtisas təhsili müəssisəsinin tədris struktur bölməsi olub, bir və ya bir neçə yaxın fənlər üzrə tədris, metodiki və pedaqoji işləri həyata keçirir.

Fənn birləşmə komissiyasının əsas vəzifələri aşağıdakılardır:

- bütün təhsil formaları üçün tədris planlarında nəzərdə tutulmuş laboratoriya, nəzəri, praktiki və digər dərslərin yüksək elmi-nəzəri səviyyədə aparılması;
- kurs və buraxılış işlərinə (layihələrinə), istehsalat təcrübələrinə, tələbələrin sərbəst dərslərinə rəhbərlik edilməsi;
- semestr imtahanlarının keçirilməsi;
- dövlət attestasiyasının təşkili və keçirilməsi;
- təhsilalanlar arasında tərbiyə işinin təşkili;
- tədris edilən fənlər üzrə tədris proqramlarının işlənib hazırlanması və müvafiq qaydada təsdiq üçün təqdim edilməsi, həmçinin digər kafedraların hazırladıqları tədris proqramlarına rəy verilməsi;
- dərslik, dərs vəsaitləri, metodiki rəhbərlik və göstərişlər, əyani vəsaitlər və s. hazırlanması, direktorun göstərişi ilə dərslik, dərs vəsaiti və tədris-metodiki ədəbiyyata rəy verilməsi;
- fənn birləşmə komissiyası əməkdaşlarının tədris, elmi-metodiki və digər işlərinin, fərdi planlarının hazırlanması və həyata keçirilməsi;
- orta ixtisas təhsili müəssisələrinin fənn birləşmə komissiyalarının qabaqcıl iş təcrübəsinin öyrənilməsi və yayılması, gənc müəllimlərə pedaqoji təcrübə toplamaqda köməklik göstərilməsi;
- tədris prosesində müasir təlim texnologiyalarından istifadə edilməsinə dair tədbirlər hazırlanıb həyata keçirilməsi;
- qabaqcıl təcrübənin öyrənilməsi və müxtəlif müəssisə və təşkilatlarla əlaqələrin təşkil edilməsi.

4.8. Fənn birləşmə komissiyasına rəhbərliyi qanunvericiliklə müəyyən olunmuş qaydada bu vəzifəyə təyin edilmiş kafedra müdiri həyata keçirir.

Fənn birləşmə komissiyasının sədri:

- fənn birləşmə komissiyasının iclaslarını çağırır, onlara sədrlik edir, onların qərarlarını təsdiq edir;

- fənn birləşmə komissiyasının işini planlaşdırır və təşkil edir, onun fəaliyyətinə rəhbərlik edir;
- hər il fənn birləşmə komissiyasının fəaliyyəti barədə hesabat təqdim edir;
- fənn birləşmə komissiyasının fəaliyyətinin nəticələrinə görə fənn birləşmə komissiyasının kollektivi, pedaqoji şura və rəhbərlik qarşısında məsuliyyət daşıyır.

4.9. Orta ixtisas təhsili müəssisələrində pedaqoji, mühəndis-texniki, inzibati, inzibati-təsərrüfat, tədris-köməkçi və digər heyətlər üzrə vəzifələr nəzərdə tutulur. Bu vəzifələrə təyinolunma təhsil müəssisəsinin rəhbəri tərəfindən həyata keçirilir.

5. Təhsilalanların, təhsilverənlərin və digər işçilərin hüquq və vəzifələri

5.1. Orta ixtisas təhsili müəssisələrində əmək və onunla bağlı digər sosial-iqtisadi münasibətlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Nümunəvi Nizamnamə, orta ixtisas təhsili müəssisəsinin nizamnaməsi, orta ixtisas təhsili müəssisəsinin daxili intizam qaydaları və kollektiv müqaviləsi ilə tənzimlənir. Orta ixtisas təhsili müəssisəsinin daxili nizam-intizam qaydaları və kollektiv müqaviləsi işçilərin işə qəbul olunması və işdən azad olunmasını, əmək müqaviləsinin tərəfdaşlarının hüquqlarını, təhsil müəssisəsində əmək rejimini və s. özündə əks etdirir. Kollektiv müqavilə mövcud qanunvericiliyə uyğun olaraq 1 ildən 3 ilə qədər müddətə bağlanılır. Həmin müddət orta ixtisas təhsili müəssisəsinin nizamnaməsi ilə tənzimlənir.

5.2. Təhsilalanların, müəllimlərin və digər işçilərin hüquq və vəzifələri qanunvericiliyə əsasən müəyyən edilir və bu Nümunəvi Nizamnamə, orta ixtisas təhsili müəssisəsinin nizamnaməsi və daxili nizam-intizam qaydaları ilə tənzimlənir.

5.3. Təhsilalanların hüquqları aşağıdakılardır:

- təhsil müəssisəsini, təhsil istiqamətini, ixtisası, təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;
- dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;
- orta ixtisas təhsili müəssisəsinin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;
- təhsil müəssisəsinin mövcud infrastrukturundan istifadə etmək;
- müəyyən edilmiş qaydada orta ixtisas təhsili müəssisəsini və ixtisasını dəyişmək;
- fasiləsiz təhsil almaq;
- sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;
- insan ləyaqətini və şərəfini alçaldan, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;
- müəyyən edilmiş qaydada təhsil müəssisəsində təhsilini müvəqqəti dayandırmaq;
- Azərbaycan Respublikası Təhsil Nazirliyinin müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;
- təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;
- orta ixtisas təhsili müəssisəsinin ictimai, sosial və mədəni həyatında, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək;
- praktik konfransların, seminarların, yığıncaqların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

5.4. Təhsilalanların vəzifələri aşağıdakılardır:

- dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

- pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq, daxili intizam qaydalarının tələblərinə riayət etmək;
- dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək.

5.5. Təhsilverənlərin hüquqları aşağıdakılardır:

- normal əmək, pedaqoji iş və təhsil şəraiti, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;
- təhsil müəssisəsinin nizamnaməsinə uyğun olaraq təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək;
- tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək;
- şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;
- təhsil müəssisəsində vəzifə tutmaq və müvafiq hallarda seçkili vəzifələrə seçmək və seçilmək;
- ixtisasını artırmaq, yeni ixtisas almaq, staj keçmək;
- müəyyən edilmiş hallarda və qaydada mükafatlandırılmaq və təltif olunmaq;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

5.6. Təhsilverənlərin vəzifələri aşağıdakılardır:

- təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;
- təhsil proqramlarının mənimsənilməsini təmin etmək;
- təhsilalanlarla fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;
- şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;

- pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;
- təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək;
- gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;
- ixtisas və pedaqoji səviyyəsini yüksəltmək, əlavə məşğələlər keçirmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada attestasiyadan keçmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

5.7. Dövlət təhsil müəssisəsində inzibati vəzifələrin tutulmasının yaş həddi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Bu yaş həddinə çatan pedaqoji işçilərin inzibati vəzifə tutmamaq şərtilə, təhsil müəssisəsinin tədris fəaliyyətində tam iştirak etmək hüququ təmin edilir.

6. Orta ixtisas təhsili müəssisəsinin maliyyə-təsərrüfat fəaliyyəti

6.1. Orta ixtisas təhsili müəssisəsinin əmlakı dövlət, bələdiyyə, təsisçilər, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən, eləcə də qanunvericiliklə qadağan olunmayan və öz nizamnaməsində əksini tapan fəaliyyəti nəticəsində əldə etdiyi əmlakdan, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir.

Orta ixtisas təhsili müəssisəsi mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır. Orta ixtisas təhsili müəssisəsinin əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti təsisçi və ya onun səlahiyyət verdiyi şəxs həyata keçirir.

Dövlət orta ixtisas təhsili müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi və genişləndirilməsi dövlət büdcəsinin vəsaitləri və büdcədənkənar vəsaitlər hesabına həyata keçirilir.

Orta ixtisas təhsili müəssisəsi qanunvericiliklə müəyyən olunmuş qaydada öz nizamnaməsində göstərdiyi xidmətlər (tədris, müalicə-profilaktika və digər xidmətlər) nəticəsində daşınar və daşınmaz əmlak, o cümlədən bina, avadanlıq, yeni texnologiya, nəqliyyat vasitələri və s. əldə edə bilər.

Dövlət mülkiyyətində olan orta ixtisas təhsili müəssisəsinin özəlləşdirilməsi qadağandır.

Dövlət orta ixtisas təhsili müəssisəsinin büdcədənkənar mənbələrdən daxil olan vəsaitlər hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxil edilir.

Dövlət orta ixtisas təhsili müəssisəsinin istifadəsinə verilmiş əmlakın geri qaytarılması qanunvericiliklə tənzimlənir.

6.2. Orta ixtisas təhsili müəssisəsi mövcud qanunvericilik çərçivəsində, öz nizamnaməsində müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə müxtəlif ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hüquqi və fiziki şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir. Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak dövlət orta ixtisas təhsili müəssisəsinə dövlət büdcəsindən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq sərbəst istifadə edilir.

Dövlət orta ixtisas təhsili müəssisələrinin əldə etdiyi mənfəət yalnız təhsilin inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilə bilər.

Dövlət orta ixtisas təhsili müəssisəsinin maliyyələşdirilməsi orta ixtisas təhsili pilləsi üzrə müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir. Bu normativlər təhsil müəssisəsinin tipinə, növünə və kateqoriyasına uyğun olaraq, hər bir təhsilalana düşən məsrəf məbləği nəzərə alınmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Dövlət təhsil müəssisəsi öz nizamnaməsinə uyğun olaraq, ödənişli təhsildən əldə olunan və digər büdcədənkənar vəsaitlərin xərclənməsi istiqamətlərini və işçilərin maddi həvəsləndirilməsinə ayırmaların xüsusi çəkisini sərbəst

müəyyən edir, təhsilverənlərə və təhsilalanlara maddi yardımlar göstərir.

Dövlət orta ixtisas təhsili müəssisəsinin inkişafına, təhsilalanların təhsil haqqının və təhsillə bağlı xərclərinin ödənilməsinə uzunmüddətli və fərdi kreditlər verilməsini, beynəlxalq təcrübənin öyrənilməsi və digər məqsədlər üçün müvafiq qaydada qrantlar ayrılmasını təmin edir. Kreditlərin və qrantların verilməsi qaydaları və şərtləri müvafiq qanunvericilik aktları ilə müəyyən edilir.

Dövlət təhsil sahəsinə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi məqsədi ilə əlverişli investisiya mühitinin yaradılmasını təmin edir və bu məqsədlə sərmayəçilərə qanunvericiliklə müəyyən edilmiş qaydada güzəştlər verilir.

6.3. Dövlət və bələdiyyə orta ixtisas təhsili müəssisələrinin maliyyələşdirilməsi aşağıdakı mənbələr hesabına həyata keçirilir:

- qanunvericiliyə uyğun olaraq dövlət büdcəsinin və yerli büdcənin vəsaitləri;
- ödənişli təhsildən əldə olunan vəsaitlər;
- hüquqi və fiziki şəxslərin, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin qanunvericiliyə uyğun olaraq verdikləri qrantlar, vəsiyyət etdikləri vəsaitlər, ianələr və yardımlar;
- orta ixtisas təhsili müəssisəsinin təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdiyi vəsaitlər;
- orta ixtisas təhsili müəssisəsinin mülkiyyətində olan fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından qanunvericiliyə uyğun olaraq əldə edilən vəsaitlər;
- dövlət tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər;

- hüquqi və fiziki şəxslərin müqavilə əsasında mütəxəssis hazırlığı, ixtisasartırma və kadrların yenidən hazırlanması üçün ayırdıqları vəsait;
- qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən əldə olunan vəsaitlər.

6.4. Özəl orta ixtisas təhsili müəssisəsi aşağıdakı mənbələr hesabına maliyyələşdirilir:

- təhsil xidmətlərinə görə əldə olunan vəsaitlər;
- təsisçilərin (himayəçilərin) vəsaitləri;
- qanunvericiliyə uyğun olaraq verilən qrant və kreditlər;
- hüquqi və fiziki şəxslərin ianələri, yardımları, vəsiyyət etdikləri əmlak və bağışladıqları hədiyyələr;
- təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə olunan vəsaitlər;
- qanunvericiliklə qadağan edilməyən və nizamnaməsində göstərilən digər mənbələr hesabına əldə olunan vəsaitlər.

Özəl orta ixtisas təhsili müəssisəsi öz maliyyə vəsaitlərini sərbəst idarə edir. Özəl orta ixtisas təhsili müəssisəsi təhsil haqqının məbləğini ayrı-ayrı ixtisasların təhsil proqramlarına uyğun olaraq sərbəst müəyyən edir.

Özəl orta ixtisas təhsili müəssisəsi ilə təhsilalanlar, valideynlər və ya digər qanuni nümayəndələr arasında münasibətlər müqavilə ilə tənzimlənir.

6.5. Orta ixtisas təhsili müəssisəsi əlavə gəlir əldə etmək məqsədi ilə öz nizamnaməsində nəzərdə tutulmuş qaydada "Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədi ilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10 nömrəli qərarına uyğun olaraq sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər.

Orta ixtisas təhsili müəssisəsi sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlərdən sərbəst istifadə etmək hüququna malikdir. Dövlət orta ixtisas təhsili müəssisəsinin sahibkarlıq

fəaliyyətindən əldə etdiyi gəlirlər bilavasitə təhsilin inkişafına və işçilərin sosial müdafiəsinə yönəldilir.

Orta ixtisas təhsili müəssisəsi sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada, öz nizamnaməsinə uyğun olaraq hüquqi şəxslər yarada bilər və ya başqa hüquqi şəxslərin fəaliyyətində iştirak edə bilər.

6.6. Orta ixtisas təhsili müəssisəsində təhsilin dövlət təhsil standartlarına uyğun təşkil olunmaması nəticəsində təhsilalanların keyfiyyətsiz hazırlığı müəyyən edildiyi halda vurulmuş zərərin, o cümlədən təhsilalanların başqa təhsil müəssisələrində yenidən hazırlanması üçün zəruri olan xərclərin həmin təhsil müəssisəsi və bilavasitə zərər vurulmasında təqsirkar şəxslər tərəfindən ödənilməsi barədə məhkəmədə iddia qaldırıla bilər. Bu bəndin birinci abzasına uyğun olaraq, iddia yalnız akkreditasiya olunmuş təhsil müəssisəsi barədə akkreditasiya xidməti tərəfindən verilən mənfi rəyə əsasən qaldırıla bilər.

7. Təhsil sahəsində beynəlxalq əlaqələr

Orta ixtisas təhsili sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirilir.

Orta ixtisas təhsili müəssisələrində tədris prosesi Avropa Kredit Transfer Sisteminə uyğun olan kredit sistemi əsasında təşkil olunur. Kredit sistemi üzrə tədrisin təşkili qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

Orta ixtisas təhsili müəssisəsi qanunvericiliyə və özünün fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq xarici ölkələrin təhsil müəssisələri ilə, təşkilatlarla, beynəlxalq qurumlar və fondlarla birbaşa əlaqələr yarada, əməkdaşlıq haqqında ikitərəfli və çoxtərəfli müqavilələr bağlaya, təhsil sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət qurumlarına (ittifaqlar, birliklər, assosiasiyalar və s.) daxil ola və əməkdaşlığın digər formalarını həyata keçirə bilər.

Orta ixtisas təhsili müəssisəsi beynəlxalq səviyyəli birgə təhsil layihələrinin hazırlanması, tələbələrin, müəllimlərin mübadiləsi, iddia sənədi, patent və ya onlarla bağlı hüquqların özgəninkiləşdirilməsi və bu qəbildən olan digər fəaliyyətlə müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada müstəqil məşğul olmaq hüququna malikdir.

Orta ixtisas təhsili müəssisəsi fəaliyyətinin keyfiyyətini yüksəltmək və beynəlxalq əlaqələrini genişləndirmək məqsədi ilə Azərbaycan Respublikasının mövcud normativ hüquqi aktlarının tələblərini gözləməklə, öz nizamnaməsinə uyğun, müstəqil olaraq xarici tərəfdaşlarla birlikdə ölkə daxilində və xarici dövlətlərdə müştərək struktur bölmələri (mərkəzlər, filiallar, laboratoriyalar, texnoparklar və s.) yaratmaq hüququna malikdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 14 yanvar tarixli 7 nömrəli qərarı ilə
təsdiq edilmişdir
2 nömrəli əlavə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının SİYAHISI

Azərbaycan Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarlarında dəyişikliklər edilsin:

1. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi normativ aktlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 4 noyabr tarixli 154 nömrəli qərarının III bəndi çıxarılsın.
2. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 sentyabr tarixli 123 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 9, maddə 741; 2005-ci il, № 12, maddə 1228) II bəndi çıxarılsın.
3. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr və dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 26 dekabr tarixli 209 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 12, maddə 1344) 2-ci bəndi çıxarılsın.
4. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 4 sentyabr tarixli 202 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 9, maddə 853) 5-ci bəndi çıxarılsın.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 14 yanvar 2011-ci il tarixli 7 №li "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi barədə qərarının icrasını təmin etmək məqsədilə

ƏMR EDİRƏM:

1. Təhsil Nazirliyinin aidiyyəti şöbə müdirləri və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"ni və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi barədə 14 yanvar 2011-ci il tarixli 7 №li qərarını işdə rəhbər tutsunlar.
2. Nəzərə alınsın ki:
   - orta ixtisas təhsili müəssisəsinin Nizamnaməsi "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 1.2-ci bəndinə uyğun hazırlanmalı;
   - "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 1.3-cü bəndinə uyğun olaraq orta ixtisas təhsili müəssisəsinin nizamnaməsi təhsil müəssisəsinin pedaqoji şurası tərəfindən qəbul olunur və təsisçisi (Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi nizamnamələr istisna olmaqla) tərəfindən təsdiq edilir. Bələdiyyə və özəl orta ixtisas təhsili müəssisələrinin nizamnamələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəyi əsasında təsisçilər tərəfindən təsdiq edilir.
3. Orta ixtisas təhsili müəssisələrinin direktorlarına tapşırılsın ki, 1 (bir) ay müddətində bu əmrin 2-ci bəndinə müvafiq olaraq rəhbərlik etdikləri orta ixtisas təhsili müəssisəsinin Nizamnaməsinin hazırlanmasını, təsdiqini və qanunvericilikdə

müəyyən olunmuş qaydada Ədliyyə Nazirliyində qeydiyyata alınmasını təmin etsinlər.

4. Təhsil Nazirliyi Aparatının rəhbərinə (İ.Pirməmmədov), Ali və orta ixtisas təhsili şöbəsinə (İ.Mustafayev) tapşırılsın ki, bu əmrdən irəli gələn digər zəruri tədbirləri həyata keçirsinlər.

5. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

ƏSAS: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.01.2011-ci il tarixli 7 saylı qərarı.

Misir Mərdanov,
Azərbaycan Respublikasının təhsil naziri

“Şərq-Qərb” Nəşriyyat evində çapa hazırlanmışdır

Buraxılışa məsul:	*Rasim Müzəffərli*
Texniki redaktor:	*Rövşən Ağayev*
Kompyuter səhifələnməsi:	*Allahverdi Kərimov*
Üz qabığının dizaynı:	*Elşən Qurbanov*

“Şərq-Qərb” Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 83 43
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az